# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 85 (3409) Cümə axşamı / 11-17 noyabr 2021-ci il Qiyməti 40 qəpik


QƏLƏBƏ

## Zəfər Yolu...



**Şair Ramaldanov,** ehtiyatda olan polkovnik-leytenant, hərbi ekspert

***Bu gün Azərbaycanımız tarixinə qızıl hərflərlə yazılan böyük bir hadisəyə şahidlik edir, həm də onu yaşayır. Azərbaycan 30 ilə yaxın müddətdə işğalı altında qalan torpaqlarını azad etdiyi günün-Zəfərin 1 ilini qeyd edir. Bu Zəfər Gününü Azərbaycan Tarixinə yazan Müzəffər Orduya, müzəffər Ali Baş Komandan, müzəffər əsgər və zabitlərə, öz qanı, canı ilə ilə bu torpağa ruh verən ŞƏHİD oğullarımıza Eşq olsun! Allah Şəhidlərimizə rəhmət eləsin! Allah vətən uğrunda döyüşlərdə can verən, qan tökən qazilərimizə şəfa versin. Öz qanı canı ilə VƏTƏN yazan iğid Oğullarımız, Qarşınızda baş əyirik, Zəfər Gününüz Mübarək deyirik!..***

*Bizim cəmiyyətimiz artıq müharibə sınağından çıxdı, prioritetlər, baxışlar, gəncliyimiz yaxşılığa doğru dəyişdi...*

Səh. 3

# 10 Noyabr bəyanatı

**Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında üçtərəfli Bəyanatın imzalanmasının bir ili tamam oldu. 2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti hərbi təcavüzünə cavab olaraq Azərbaycan xalqı işğal altındakı torpaqların azad edilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsinə başlayıb. Noyabrın 8-də Şuşanın işğaldan azad edilməsi ilə Ermənistan məğlubiyyətini qəbul edib. Noyabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında Bəyanat imzalanıb. Bəs bir il ərzində bəyanatda əksini tapan müddəalarla bağlı hansı addımlar atılıb, tərəflər üzərlərinə götürdükləri öhdəliklərə nə dərəcədə riayət edirlər? Hafta.az politoloqlarla ictimai müzakirədə bu suallara aydınlıq gətirməyə çalışıb:**



## Bir ildə nələr dəyişdi...

*Bəyannamənin şərtləri Ermənistan və Rusiya tərəfindən icra edilmir...*

*Biz Ermənistanı imza atdığı sənədə əməl etməyə məcbur etməliyik...*

*Azərbaycan Ordusu yalnız Dağlıq Qarabağın ətrafını - 7 rayonu deyil, Hadrut və Şuşanı azad edib və bu daha böyük uğurdur...*

*10 noyabr bəyanatı Ermənistan üçün kapitulyasiya aktı, Azərbaycan üçün isə tarixi diplomatik qələbə sənədidir...*

**Samir Hümbətov, politoloq:**

- Azərbaycan tərəfi imzalanmış bəyannamənin şərtlərinə tam şəkildə əməl etsə də, müqaviləni imzalayan Ermənistan və Rusiya tərəfi müqavilənin şərtlərinin icrasını yubatmaqla məşğuldurlar. Ermənistan və Rusiya tərəfi 10 noyabr 2020-ci ildə imzaladıqları bəyannamənin 4-cü, 7-ci, 8-ci və 9-cu maddələrini ya tam şəkildə, yaxud da ümumiyyətlə icra etməyib. 4-cü bənddə qeyd edilir ki, Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir.

Bu maddəyə diqqət etdikdə görmək olur ki, rus "sülhməramlıları" bölgəyə yerləşdirilsə də, erməni terrorçu dəstələri bölgədən çıxarılmayıb, əksinə onları həmin bölgələrdə özləri üçün dayaq postları qurmasına şərait yaradılıb. Bəyannamənin 7-ci maddəsində qeyd edilir ki, daxili məcburi köçkünlər və qaçqınlar Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında geri qayıdır. Bu maddə isə tamamilə icra edilməyib...



**Elxan Şahinoğlu, politoloq:**

- Azərbaycan 2020-ci ildə 44 gün çəkən müharibədə Ermənistanı və erməni separatçılarını məğlub etdi. Ermənistan ordusu Şuşa şəhəri üzərində nəzarəti itirdikdən sonra Xankəndini itirmək təhlükəsi ilə üzləşdi. Buna görə də, Ermənistanın baş naziri Nikol Paşinyan müharibəni dayandırmaq məqsədilə Rusiya prezidenti Vladimir Putinə müraciət etdi.

Şuşa azad edildikdən sonra Paşinyan Rusiyanın hazırladığı bəyanatı qəbul etmək məcburiyyətində qaldı. Müharibə ilə bağlı Azərbaycanda ən çox səslənən suallardan biri budur: "Azərbaycan ordusu Şuşanı azad edəndən sonra Xankəndiyə niyə daxil olmadı və rəsmi Bakı rusiyalı sülhməramlıların Qarabağda yerləşdirilməsinə niyə razılaşdı?". Azərbaycan ordusu Şuşanı azad etdikdən sonra Xankəndiyə daxil olsaydı, beynəlxalq birlik Azərbaycanı etnik təmizləmədə ittiham edə bilərdi, ölkəmizə qarşı təzyiqlər artacaqdı...

**Turan Rzayev, politoloq:**

- XXI əsrdə müharibə aparmaq çox çətin, hətta imkansıza bərabər bir şeydir. Biz bunu 44 günlük müharibə gedişində bir daha əyani surətdə gördük. Qəribədir, müstəqilliyimizi, ərazi bütövlüyümüzü tanıdığını dəfələrlə bəyan edən ölkələr müharibə zamanı israrla atəşkəs çağırışı edir, bu da azmış kimi, ölkəmizə qarşı təzyiq etməkdən geri durmurdu.

Xüsusilə Ermənistan və onun havadarları tərəfindən hərbi əməliyyatları dayandırmaq üçün Azərbaycana diplomatik və siyasi təzyiqlər göstərilirdi. Bununla belə, Prezident İlham Əliyev qəti siyasi iradəsini nümayiş etdirərək, bütün təzyiqlərə sinə gərərək onları dəf etdi, öz prinsipial mövqeyindən dönmədi.

Nəticədə rəşadətli Ordumuz, qəhrəman xalqımız və onun Müzəffər Ali Baş Komandanı ildırımsürətli müharibəni 44 günə, düşmənə göz açmağa imkan vermədən tarixi qələbə ilə başa çatdırdı.

**Fikrət Sadıqov, politoloq:**

- 1 il bundan əvvəl qəbul olunan bəyanatı birmənalı şəkildə Ermənistanın kapitulyasiyasıdır. Artıq Ermənistan başa düşürdü ki, müharibəni uduzub. Azərbaycan elə bir üstünlüyə malik bir dövlət idi ki, Paşinyanın bu bəyanatı imzalamaqdan imtina etməyə yolu yox idi. Bu, bizim hərbi gücümüzün, diplomatik addımlarımızın qələbəsi idi. Biz həm torpaqlarımızı azad etdik, həm də diplomatik müstəvidə peşəkarlığımızı nümayiş etdirdik.

Ermənistanın öz imzasına sahib çıxmamağı Zəngəzur və digər kommunikasiyaların açılmasına qarşı maneədir. Biz Ermənistanı imza atdığı sənədə əməl etməyə məcbur etməliyik. Bu sənəd Ermənistanı qane edir, yoxsa yox, bu bizi narahat etməməlidir. Biz qələbə çalan dövlətik, biz şərtləri diqtə etməli, irəli sürməliyik. 10 Noyabr bəyanatı gələcək perspektivə yönələn mühüm siyasi, diplomatik sənəddir.

Səh. 3

GÜNDƏM



**Tahir Kərimli,** Vəhdət Partiyasının sədri, millət vəkili

■ Heydər Əliyev etiraz etdi ki, üçrəngli Azərbaycan bayrağı hara, Leninin büstü hara...

■ 1991-ci ilin oktyabrından başlayaraq İsmayıllının da rəsmi qurumlarında üçrəngli bayraqlar qoyulmağa başlandı...

■ 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində Heydər Əliyevin sədrliyi ilə keçirilən sessiyada üçrəngli bayrağımız muxtar respublikanın bayrağı kimi qəbul olunub...

Səh. 2

GÜNÜN FOTOSU...



Atatürk anıldı...

GÜNÜN SİTATI

*"Söhbət 1 milyard 441 milyon manatdan gedir. Sosial paket 2 milyon insanı əhatə edəcək"*



**Sahib Babayev,** əmək və əhalinin sosial müdafiəsi naziri

KARİKATURA




Zəfər Günümüz Mübarək!!!

## Manatın məzənnəsi sabit saxlanılmalıdır

**Elşad Məmmədov,** Azərbaycan Dövlət İqtisad Universitetinin professoru, iqtisadçı ekspert

Rüsum artımıyla, tarif artımıyla iqtisadi inkişafa nail olmaq çox çətin məsələdir.

Səh. 5

STATİSTİKA



**■ İpoteka və Kredit Zəmanət Fondunun (İKZF) xətti ilə verilən ipoteka kreditlərinin sayı və məbləği açıqlanıb.**

İKZF-dən hafta.az-a bildirilib ki, İpoteka və Kredit Zəmanət Fondunun xətti ilə indiyədək 36 min 130 ipoteka krediti verilib. Fondun vəsaitləri hesabına verilmiş ipoteka kreditləri üzrə məbləğ 1 milyard 949 milyon 298 min 111 manatdır.



Səh. 7

## Büdcə vəsaiti, yoxsa özəl sərmayə?

## TƏBRİK ETDİLƏR...



**Qarabağ və Şərqi Zəngəzurun sürətli şəkildə abadlaşmasından, işğalın izlərinin qısa müddətdə silinməsindən məmnuniyyət hissi duyuram. İşğaldan azad edilmiş torpaqların yenidən qurulması və bərpası prosesində dəstəyimiz bundan sonra da fasiləsiz davam edəcək.**

Hafta.az xəbər verir ki, bu sözlər Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Zəfər Günü münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubunda yer alıb.

Məktubda deyilir: "Azərbaycanın ötən il noyabrın 8-də işğaldan azad edilmiş mədəniyyət paytaxtı Şuşada imzaladığımız Bəyannamə ilə münasibətlərimizin müttəfiqlik səviyyəsinə çatdırılması ölkələrimiz üçün tarixi addımdır. Həmrəyliyimizin bundan sonra da "Bir millət, iki dövlət" şüarı ilə hər sahədə inkişaf edəcəyinə şübhə yoxdur.

Azadlıq uğrunda şəhid olan qardaşlarımızı rəhmət və ehtiramla yad edir, qələbə yolunu açan qazilərimizə minnətdarlığımı bildirirəm. Əziz Qardaşım, fürsətdən istifadə edərək Zati-alinizin cansağlığı və xoşbəxtliyi, can Azərbaycan xalqının rifahı və firavanlığı üçün ən xoş arzularımı çatdırıram".

***



**Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə**

***"Hörmətli İlham Heydər oğlu,***

Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə əlamətdar olan milli bayramınız münasibətilə Sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Bu əlamətdar tarix Azərbaycan Respublikasının şanlı salnaməsinə ölkənizin dövlətçiliyinin və suverenliyinin möhkəmləndirilməsi naminə xalqınızın birlik, mətanət, əyilməz iradəsinin rəmzi kimi həmişəlik yazılmışdır.

İnanıram ki, Azərbaycan Sizin güclü rəhbərliyinizlə davamlı inkişaf və tərəqqi yolu ilə inamla irəliləyəcək, Qazaxıstan-Azərbaycan dostluq, qarşılıqlı dəstək və strateji tərəfdaşlıq münasibətləri isə xalqlarımızın rifahı və mənafeyi naminə bundan sonra da dərinləşəcək.

Hörmətli İlham Heydər oğlu, Sizə məsul dövləti fəaliyyətinizdə yeni-yeni nailiyyətlər, qardaş Azərbaycana firavanlıq və tərəqqi arzulayıram.

**Hörmətlə,**

**Kasım-Jomart Tokayev, Qazaxıstan Respublikasının Prezidenti"**

***

**Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə**

***"Zati-aliləri, möhtərəm cənab Prezident,***

8 Noyabr - Zəfər Günü münasibətilə Sizə, qardaş Azərbaycan xalqına ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Sizin rəhbərliyinizlə qəhrəman Azərbaycan xalqı, rəşadətli Azərbaycan Ordusu onillər boyunca davam edən haqsızlığa, zülmə, ədalətsizliyə və hüquqsuzluğa son qoydu, Birləşmiş Millətlər Təşkilatının qətnamələrini öz gücü ilə icra etməklə ikili standartları zərərsizləşdirdi.

Bu şanlı Zəfər birlik, dönməzlik və əyilməz iradənin rəmzi kimi yalnız qardaş Azərbaycanın deyil, bütün türk dünyasının tarixinə qızıl hərflərlə əbədi həkk olundu.



Türk dünyasında milli kimliyin, düşüncə və fikir birliyinin yüksək səviyyəyə qalxmasına vəsilə olan, səmərəli və faydalı əməkdaşlığımıza yeni üfüqlər açan möhtəşəm Zəfər Günü münasibətilə Zati-alinizi bir daha təbrik edirəm. Sizə ali dövləti fəaliyyətinizdə uğurlar arzulayır, qardaş Azərbaycanımıza sülh, inkişaf, əmin-amanlıq və firavanlıq diləyirəm.

**Dərin hörmətlə,**

**Darxan Kıdırəli, Beynəlxalq Türk Akademiyasının prezidenti"**

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və
baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Şuşada bayrağımız bir daha enməyəcək...

## Gündəm



**Tahir Kərimli,**
Vəhdət Partiyasının sədri,
millət vəkili

***Milli azadlıq hərəkatının tanınmış simalarından biri, istiqlalçı deputat, Vəhdət Partiyasının sədri Tahir Kərimli ilə hafta.az üçün bu dəfəki - 9 Noyabr Milli Bayraq Günü ilə bağlı söhbətimizdə 1988-ci ildən bəri üçrəngli bayrağımızın xalqımızın azadlıq savaşında keçdiyi yoldan, partiya sədrinin bayrağımız haqqındakı xatirələrindən danışdıq.***

***- Tahir bəy, həyatınızda ilk dəfə Azərbaycanın üçrəngli bayrağını nə vaxt görmüsünüz, hansı xatirələriniz var bayrağımız haqda?***

- Azərbaycan Xalq Cümhuriyyətinə aid üçrəngli bayrağımızı ilk dəfə 33 il öncə - 1988-ci ilin noyabrındakı Meydan hərəkatı zamanı gördüm. Amma belə bir bayrağın mövcudluğundan artıq gənclik illərindən məlumatlı idim. Bilirdim ki, ötən əsrin 50-ci illərində 3 nəfər qəhrəman soydaşımız üçrəngli bayrağımızı Qız Qalasının üzərinə qaldırmış və sovet rejimi onları həbs etmişdi... Hərəkatın ilk günlərində meydanda hələ də sovet Azərbaycanının bayraqları görünürdü. Ancaq sonrakı günlər ara-sıra üçrəngli bayrağımız da görünməyə başladı... Yadımdadır ki, Cəfər Cabbarlının qohumu olan bir xanım həmin bayraqdan tikərək meydana gətirirdi. O vaxt bilmədim, ona necə minnətdarlıq edim, o illər nadir tapılan Çin istehsalı olan bir bahalı qələmim var idi, onu bağışladım nəvəsinə...

***- Səhv etmiriksə, 1991-ci ilin martında parlament binasında SSRİ-dən ayrılıb müstəqil olmağımızla bağlı aclıq aksiyası keçirərkən də yanınızda Azərbaycan bayrağı var idi?***

- Bəli, təbii... Meydan hərəkatından sonra artıq hamımız üçrəngli bayrağımızdan ayrılmadıq. Müxtəlif ölçülərdə bayraqlar düzəltdirib, evimizdə, maşınlarda özümüzlə gəzdirirdik... Müstəqil dövlətin digər atributları, himnimiz kimi bayrağımızı da sevməyə, dostlarımıza, qardaş-bacılarımıza, övladlarımıza sevdirməyə başladıq... Yadımdadır ki, rəhmətlik Əbülfəz bəy İsmayıllıya - bizə gələndə əlində bayraq azyaşlı övladlarıma himn oxudurdu. 5-6 yaşlı oğlum ondan təkrar oxumağı xahiş edəndə Elçibəy yenə də əlində bayraq ayağa qalxıb uşaqlarla bərabər himni oxuyurdu... Yəni övladlarımız da üçrəngli bayrağımıza sevgi ruhunda böyüməyə başladı...

***- Yadınızda deyil, Bakıda ilk dəfə hansı rəsmi binanın üzərində qaldırıldı bayrağımız?***

- Təəssüf ki, o dəqiq yadımda deyil... Amma yadımdadır ki, 1991-ci il, səhv etmirəmsə, fevralın 5-də üçrəngli bayrağımız Ali Sovetdə təsdiq olunanda, onu təntənəli şəkildə salona gətirəndə hələ SSRİ-nin banisi Leninin büstü parlamentin binasında idi. O zaman Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olan Heydər Əliyev də biz, demblok üzvləri ilə həmfikir olaraq etiraz etdi ki, üçrəngli Azərbaycan bayrağı hara, Leninin büstü hara, o büst oradan götürülməlidir. Həmin çıxış stenoqramlarda da qalıb.

Və onu da hamı bilir ki, 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində Heydər Əliyevin sədrliyi ilə keçirilən sessiyada Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı muxtar respublikanın bayrağı kimi qəbul olunub. Və bu bayraq Azərbaycanda ilk dəfə rəsmi şəkildə Naxçıvanda ucaldılıb Həmçinin o günlər Naxçıvanın adından "sovet sosialist" sözləri də çıxarılıb. Yəni sözüm ondadır ki, o vaxt Heydər Əliyevlə parlamentdəki demokratik blokun istəkləri üst-üstə düşürdü. Demək olar ki, 100 faiz eyni şeyləri tələb edirdik. Heydər Əliyev bizim üzvümüz olmasa da, bunun belə olması faktdır...

***- 1990-cı illərin əvvəlində sizin məhkəmə hakimi, sədri işlədiyiniz, sonradan deputatı olduğunuz rayonlardakı rəsmi qurumlarda nə vaxt qaldırıldı bayrağımız?***

- Bunu gizlətmək lazım deyil... Hələ 1990-cı ilin 20 Yanvar qətliamına qədər bütün rəsmi hökumət idarələrində olduğu kimi, mən də İsmayıllıda hakim, məhkəmə sədri kimi işlədiyim kabinetdə Azərbaycan SSR-in bayrağını və SSRİ rəhbəri M.Qorbaçovun portretini saxlayırdım. Ancaq Qara Yanvardan az sonra - 1990-cı ilin, səhv etmirəmsə, 22 yanvarında Qorbaçova ölüm hökmü elan edəndə onun portretini də, sovet Azərbaycanın bayrağını da otağımdan çıxardım. Sonra barmağımı çərtərək Qorbaçovun şəkildəki gözlərini qana boyayaraq onu İsmayıllının meydanına sancmışdım... Məni o vaxt işdən çıxardılar. Amma artıq 1991-ci ilin oktyabrından başlayaraq İsmayıllının da rəsmi qurumlarında üçrəngli bayraqlar qoyulmağa başlandı...

***- Tahir müəllim, şükürlər olsun ki, bu gün Azərbaycan bayrağı şəhidlərimizin, qazilərimizin canı-qanı hesabına artıq Şuşada, Kəlbəcərdə, Qubadlıda, Laçın rayonunun əksər kəndlərində və s. dalğalanır? Bundan sonrakı arzunuz nədir bayrağımız haqqında?***

- Bəziləri məni qınaya bilər... Bəziləri bayrağımızın Xankəndinə sancılmasını Şuşadan da üstün tuturlar, Xankəndi mərkəz olduğuna görə... Əlbəttə, mən də arzulayıram ki, Xankəndində də Azərbaycan bayrağı dalğalansın. Amma öncə Şuşada dalğalanmağını daha vacib hesab edirəm. Çünki Şuşanın qəlbimizdəki yeri ayrıdır, Şuşa yuxularımızın şəhəridir... Şuşa hər mənada ucadadır... Şuşanın bizim olmağı artıq həm hərbi-strateji, həm mənəvi-ideoloji, həm mədəni baxımdan bütün Qarabağın, o cümlədən Xankəndinin bizim olmağıdır. İnşallah, bu məsələ də tezliklə həllini tapar və Xankəndində, eləcə də Xocalıda, Qarabağın digər məkanlarında da bayrağımız ucaldılar. Buna mənim heç şübhəm yoxdur...

Yeri gəlmişkən, bir fikrimi də saytınız vasitəsilə çatdırmaq istərdim. Son günlər Türkiyə mediasında belə məlumatlar yayılır ki, guya türklər Suriyada Rusiyaya sərf etməyən məntəqələrə hücuma keçsə, ruslar da Qarabağda ermənilərlə bərabər hücum edib Şuşanı alacaqlar. Amma ruslar da, ermənilər də onu bilməlidirlər ki, bundan sonra biz ölərik, amma canımız bahasına da olsa, bayrağımız sancılan Şuşanı əldən verməri. Üçrəngli bayrağımızın Şuşada bir daha yerə düşməsinə, yenilməsinə imkan verməri... Yeri gəlsə, bütün Azərbaycan xalqı Qarabağa axışıb imperiya ilə mübarizə aparacağıq, qoy 20 Yanvarda kimi tanklarıyla üstümüzə gəlsinlər, hamımızı qırsınlar, amma Şuşanı əldən vermək yoxdur. Rusiya bunu bilməlidir...

Onu da bilirik ki, bu mübarizədə qardaş Türkiyə yenə də yanımızda olacaq. Ümumiyyətlə, Türkiyənin bizə dəstəyi bütün xalqımız kimi məni də çox sevindirir və ruhlandırır...



*"Heydər Əliyev etiraz etdi ki, üçrəngli Azərbaycan bayrağı hara, Leninin büstü hara...*

*1991-ci ilin oktyabrından başlayaraq İsmayıllının da rəsmi qurumlarında üçrəngli bayraqlar qoyulmağa başlandı...*

*1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində Heydər Əliyevin sədrliyi ilə keçirilən sessiyada üçrəngli bayrağımız muxtar respublikanın bayrağı kimi qəbul olunub...*

***✍ Sultan Laçın***

# Üçrənglimiz gücümüzə güc qatıb...

**"Tarixdən məlumdur ki, Dövlət Bayrağımız ilk dəfə 1918-ci il noyabrın 9-da Bakıda, Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının yerləşdiyi binada qəbul edilmiş və qaldırılmışdır. Daha sonra 70 illik sovetlər periodunda üçrənglimiz arzuolunmaz simgə kimi cəza təhdidi altında gözlərdən də könüllərdən də uzaq saxlanıldı". Bu sözləri SİA-ya açıqlamasında deputat Bəhruz Məhərrəmov deyib.**

Onun sözlərinə görə, bayrağımızın ikinci dəfə Azərbaycanda öz haqq etdiyi yerdə ucalması birmənalı olaraq prezidentlər - Ümummilli Lider Heydər Əliyev və cənab İlham Əliyev şəxsiyyətləri ilə bağlıdır: "Məlumdur ki, SSRİ dönəmində ikinci dəfə bayrağımızı qaldırmaq sözün əsl mənasında milli mövqe və cəsarət tələb edirdi ki, bu rolu Ümummilli lider Heydər Əliyev üstləndi. 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri kimi dahi liderin təşəbbüsü ilə keçirilən sessiyada Muxtar Respublikanın Dövlət bayrağı kimi qəbul edildi və Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağımızın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırdı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 17 noyabr 2009-cu il Sərəncamı ilə üçrəngli bayrağımızın 1918-ci ildə ilk dəfə rəsmi ucaldığı 9 noyabr tarixi Dövlət Bayrağı Günü kimi təsis edilib 2010-cu ildən etibarən bu tarix bayram günü kimi qeyd olunur".



**Bəhruz Məhərrəmov,**
Milli Məclisin deputatı

Deputat sözlərinə belə davam edib: "Ötən ildən etibarən isə nəhayət ki, üçrənglimiz müstəqil Azərbaycanın başda Şuşa olmaqla işğaldan azad olunmuş ərazilərinin də üzərində dalğalanmaqda, gücümüzə güc qatıb bizə ruh verməkdədir. Bayraq hər bir vətəndaş üçün kimlikdir, mənəvi simgədir, dövlət üçün isə suverenlik göstəricisidir. Konstitusiyamızın 23-cü maddəsinə əsasən, Azərbaycan Respublikasının Dövlət Bayrağı dövlət rəmzimizidr.

*"Bayraq hər bir vətəndaş üçün kimlikdir, mənəvi simgədir, dövlət üçün isə suverenlik göstəricisidir*

Dövlət bayrağının yerləşdirilməli olduğu yerlər, təsvirinin istifadəsi, ayrı-ayrı situasiyalarda bayraqdan istifadə "Dövlət bayrağından istifadə qaydaları haqqında" qanunvericilikdə müəyyən olunmuş formada həyata keçirilir.

Dövlət bayrağının mahiyyətinin və əhəmiyyətinin geniş təbliğ olunması, gənc nəslin bayrağımıza hörmət ruhunda tərbiyə edilməsi məqsədilə iş aparılır, habelə, Azərbaycanda və ərazimizdən kənarda Dövlət bayrağı barədə təhqiredici hərəkətlərin qarşısının alınması məqsədilə hüquq normalarına uyğun olaraq qanunvericilik səviyyəsində tədbirlər görür. Vətəndaşlar, habelə ölkə ərazisində olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Dövlət bayrağına hörmətlə yanaşmalıdırlar.



Dövlət bayrağının masaların və ya kürsülərin üstünə örtük kimi sərilməsi, oturulan və ayaq basılan yerlərə qoyulması qadağandır və Cinayət Məcəlləsinin 324-cü maddəsinə əsasən, təhqiredici hərəkət hesab edilərək məsuliyyətə səbəb olur".

"Bu gün müstəqil Azərbaycan Respublikasının üçrəngli Dövlət bayrağı ən mötəbər salonlarda lider dövlət və aparıcı gücün rəmzi olaraq seçilir. Qlobal təşəbbüslərdən danışılanda ilk nümayiş olunan bayraqlardan biri olan üçrənglimiz hər bir azərbaycanlı üçün fəxr, fəxarət mənbəyidir".

***✍ Azad***

## Qələbə

# Zəfər Yolu...

***Bu** gün Azərbaycanımız tarixinə qızıl hərflərlə yazılan böyük bir hadisəyə şahidlik edir, həm də onu yaşayır. Azərbaycan 30 ilə yaxın müddətdə işğalı altında qalan torpaqlarını azad etdiyi günün -Zəfərin 1 ilini qeyd edir. Bu Zəfər Gününü Azərbaycan Tarixinə yazan Müzəffər Orduya, müzəffər Ali Baş Komandan, müzəffər əsgər və zabitlərə, öz qanı, canı ilə ilə bu torpağa ruh verən ŞƏHİD oğullarımıza Eşq olsun! Allah Şəhidlərimizə rəhmət eləsin! Allah vətən uğrunda döyüşlərdə can verən, qan tökən qazilərimizə şəfa versin. Öz qanı canı ilə VƏTƏN yazan iğid Oğullarımız, Qarşınızda baş əyirik, Zəfər Gününüz Mübarək deyirik!.. Hafta.az Zəfər Günündə keçmiş döyüşçü, hərbi ekspert Şair Ramaldanovla müsahibədə maraqlı fikirlərə diqqət çəkib.*

> “Aprel hadisələrindən sonra Ali Baş Komandan cənab İlham Əliyev demişdi ki, əgər Azərbaycanla Ermənistanı təkbətək qoysalar, ordumuz qısa zamanda işğalçı qüvvələri darmadağın edib ərazi bütövlüyünü bərpa etməyə qadirdir...

> Bizim cəmiyyətimiz artıq müharibə sınağından çıxdı, prioritetlər, baxışlar, gəncliyimiz yaxşılığa doğru dəyişdi...



**Şair Ramaldanov,**
ehtiyatda olan polkovnik-leytenant, hərbi ekspert

***- Şair müəllim, Zəfər Günündə bir döyüşçünün, hərbi ekspetin fikirləri, hərb tariximizə, proseslərə baxışı şübhəsiz, fərqlidir. Maraqlıdır, 8 Noyabr - Zəfər Gününü hansı təəssüratla qeyd edir və bu günlə bağlı nə düşünürsünüz?***

- Müharibə itkisiz olmur. Mən bu gün Şəhidlərimizə rəhmət, ailələrinə, yaxınlarına səbir, qazilərimizə cansağlığı və döyüşçü veteranlara da gələcəkdə Azərbaycan, gələcəyimiz naminə uğurar diləyirəm. Bütün Azərbaycan xalqını Zəfər Günü münasibətilə təbrik edirəm. Biz bu Zəfər Gününü daim ürəklərdə bəsləmişik. Azərbaycan torpaqları işğal olunduğu gündən bir dəfə də olsun, bu fikirdən yan keçməmişik. Biz hər zaman öz torpaqlarımızı qaytarmaq ruhu ilə yaşamışıq. O vaxt I Qarabağ savaşında əli silah tutan igid oğullar öz torpaqları, öz xalqı uğrunda, camaatı qorumaq üçün canından keçməyə hazır oldular. Onlar düşmənə Azərbaycan oğlunun kim olduğunu, hansı gücə sahib olduğunu göstərdilər. I Qarabağ savaşında qəhrəmanlıq göstərən qəhrəmanlarımız var. Zaman gəldikcə o səhifələr açılır. Bu gün Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı, cənab İlham Əliyevin gənclərə verdiyi yüksək qiymət və o gənclərin 44 günlük müharibədə göstərdiyi qəhrəmanlıq, igidlik, peşəkarlıq onu göstərdi ki, atalar düz deyib: ot kökü üstündə bitər. O köklər məhz I Qarabağ savaşının kökləridir. Məhz bu oğulların atalarıdır.

I Qarabağ, savaşı demək olar ki, heç bir ailədən yan keçməyib. Kiminsə oğlu, kiminsə nəvəsi iştirak edib o müharibədə... Qarabağ mövzusu bütün Azərbaycan ailələrində, Azərbaycanın xeyir, şər işində həmişə olub. Qələbə haqqında düşünərək, o inamla xeyir işlərimizi açmışıq. Məhz bu ruhla böyüyən oğullar, əlil, qazi, şəhid ailərinin övladları, öz atalarının qarşısında olan borcunu yadından çıxartmayıb. II Qarabağ savaşında iştirak edən xalq, həmin I Qarabağ müharibəsinin yetirmələridir.

Vətən sevgisi, onu azad görmək hissi bir günün bir ilin, işi deyil, bu zamanın işdir. Bu zamanı da Azərbaycan xalqı, Azərbaycan ailələri, anaları yetişdirib. “Azərbaycan əsgəri” marşında belə bir söz var, deyir: “Südüm sənə haram olsun, sən baş əysən düşmənə, marş irəli!”. Onu deyənlər hələ I Qarabağ savaşında olan analar idi. Respubkilada aparılan böyük işlər, ordu quruculuğu, ordunun peşəkarlaşması, təminatı, tədris müəssisələrində böyüklü-kiçikli vətənpərvərlik ruhnda aparılan işlər, starateji bir hədəf idi. Bilirsiniz ki, məktəblərdə dərslər himnlə başlayır. Məktəblərdə məhz Qarabağla bağlı çoxsaylı tədbirlər keçirilirdi. O tədbilərin əsas məqsədi məhz Qarabağa qayıdışla bağlı idi. “Nə vaxtsa biz Qarabağa qayıtmalıyıq”, - deyərək, gənclərin beynində, ruhunda, ürəyində böyüyürdü. Qarabağ işğal olunanda uşaq olanlar o eşqi ürəklərində böyüdürdü.

Ali Baş Komandanın verdiyi əmr əsasında həmin daxildə olan potensial od püskürdü. Düşmənlərimiz o odun qarşısında tab gətirə bilmədilər. Düşmən nə qədər istehkamlar qursa da, o gücün, haqqın qarşısında dayana bilmədi. Prezident son Bakı Forumunda bir daha vurğuladı ki, haqq öz yolunu gec-tez tapır. Bunu da həyat göstərdi və bu gün qələbəmizi qeyd edirik.

***- I Qarabağ, II Qarabağ müharibəsi ifadələri ilə tez -tez rastlaşırıq və siz də qeyd etdiniz. Siz də bir müharibə iştirakçısı kimi bu müqayisələri necə izah edərdiniz?***

- Düşünürəm ki, bu, sadəcə zamanı göstərən bir ifadədir. Əgər biz bu sözün təyinatı və mənasına sırf elmi cəhətdən baxsaq, buna “I Qarabağ savaşı” yox, “atəşkəs sazişinin bağlanıldığı dövr” deyə bilərik. Təəssüflər olsun ki, indi də müharibə şəraitindəyik, deməli bu o deməkdir ki, müharibə bitməyib. İndi sadəcə müharibənin digər formasındayıq. Biz müharibəyə işğala məruz qalan gündən başlamışıq və indi öz torpaqlarımızın bütövlüyünü bərpa edib qələbə çalaraq digər formasına keçmişik. Ermənistanla sülh müqaviləsi bağlanandan sonra “müharibə bitdi” deyə bilərik.

Bilirsiniz ki, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Ali Baş Komandanı, cənab İlham Əliyev işğaldan azad olunmuş bütün rayonlarda olub, daim ərazilərin bərpasında iştirak edənlərlə, həm hərbçilərlə görüşür. O, həmin görüşlərdə bizim Yumruğumuzun daim güclü olması, hazır olması haqqında sözləri təsadüfən demir. Bu sözləri ona görə deyir ki, biz hələ sülh müqaviləsini bağlamamışıq.

Hələ də müharibə şəraitindəyik, o vaxt Bişkek atəşkəs müqaviləsi bağlanmışdı, indi də üçtərəfli belə saziş imzalanıb. Bu atəşkəsin o atəşkəsdən fərqi ondan ibarətdir ki, Azərbaycanın ərazi bütövlüyünü tam şəkildə bərpa edən bir atəşkəsdir. Düşünürəm, hələ qabaqda böyük işlər var, hər halda inanıram ki, sülh müqaviləsi yaxınlarda bağlanacaq, hər şey ona doğru gedir. “I Qarabağ, II Qarabağ savaşı” sözü isə insanların dilində olan bir ifadədir. Ancaq elmi cəhətdən heç nə ilə əsaslanmır.



***- 2020-ci il 8 noyabra qədər olan 44 günlük savaşı və 1992-1994-cü ilə qədər könüllülərin iştirakı ilə aparılan savaşı insanlar istər-istəməz “I Qarabağ, II Qarabağ savaşı” deyərək bir-birindən fərqləndirsə də, müharibəmiz birdir. O dövrə baxanda, siz də qeyd etdiniz, o igid oğullar, hətta əliyalın şəkildə düşmənə sipər oldular. Xocalı soyqırımı ərəfəsində və digər kəndlərin müdafiəsində öz canlarını sipər edib insanları təhlükəsiz yerə aparan da o igidlər idi. Aparılan o müqəddəs müharibənin qələbə zəfərini nəhayət ki, 44 günlük müharibədə tamamladıq...***

- Azərbaycan Prezidenti buna çox gözəl fikrini bildirib. Bizim dövlət səviyyəsində istifadə etdiyimiz bir söz var - Vətən müharibəsi. Orada nə I, II, nə onlar, nə bunlar sözləri var. Yəni bir var insanların arasında olan danışıq, bir də var rəsmi yanaşma. Ona görə də sizin sözlərinizlə desək, onların davamçıları bunlar idi, bunlar onların işini davam etdirdi. Mənimlə savaşan heyətin bir hissəsi məhz II Fəxri Xiyabanda dəfn olunub. Bilirsiniz ki, orada yeni məzarlıq var. Biz müharibə dövründə, müharibədən sonra onları ziyarət edəndə, gedib mənimlə döyüşüb şəhid olanlara baxdım, sonra keçdim o biri məzarlığa baxdım. Orada mənim bacımoğlu şəhid polkovnik-leytenant Babək Ramaldanov dəfn olunub. Onların simalarına baxanda bir oxşarlıq görürəm. Təxminən eyni yaşda idilər. Ovaxtkı və indiki şəhidlərimiz... Bəlkə də bu, daxilimdən keçən hisslərdir, çünki Horadiz əməliyyatının komandiri kimi orada şəhid olanlar da burda dəfn edildi. Sadəcə, bu zaman bizdən asılı olmayan bir zaman idi. Azərbaycan dövlət rəhbərliyi humanistdir. O da bizimlı bir yerdə böyüyüb. O da həmin vaxt gənc insan idi, işğalın nəticələrini, insanların ağrısını görüb, şəhidləri görüb. Birinci vitse-prezident Mehriban xanım, o da reablitasiya mərkəzləri yaradaraq həmin əlil qazilərlə ünsiyyətdə olub. Aprel hadisələrindən sonra analarla ünsiyyətdə olub.

Biz beynəlxalq hüquq normalarına həmişə diqqətli yanaşmışıq. Atəşkəs pozulmasın deyə, özümüzün götürdüyümüz öhdəlikləri yerinə yetirmişik. O biri dövlətlərin müəyyən sözlərinə, vədlərinə müəyyən mənada inanmışıq. Bu zaman bəzi məqamlarla yadda qalıb. Əlbəttə, möhkəmləndik, ordu qurduq. Prezidentin humanistliyi ondan irəli gəlir ki, o, insan itkisinə öz itkisi kimi yanaşır. Bilirəm ki, xidmət etdiyim dövrdə atəşkəs pozulanda hər hansı bir itkiyə sərt reaksiya verilirdi. Onun tələbi də ondan ibarətdir ki, itkiyə yol verməmək. Bu müharibədə də artıq qərarları özü qəbul edəndə məhz itkiləri minimuma gətirə biləcək addımların və istiqamətlərin müəyyənləşdirilməsi Ali Baş Komandan üçün prioritet məsələ idi. Ona görə də düşünürəm, burada zaman faktoru var. Bu səbəbdən deyirik ki, 29 ildən sonra işğal edilmiş ərazilərimizi azad edə bildik. Aprel hadisələrindən sonra Ali Baş Komandan cənab İlham Əliyev demişdi ki, əgər Azərbaycanla Ermənistanı təkbətək qoysalar, ordumuz qısa zamanda işğalçı qüvvələri darmadağın edib ərazi bütövlüyünü bərpa etməyə qadirdir. Aprel döyüşlərindən sonra bu fikrin 44 günlük müharibədə eyni şəkildə həyata keçirildiyini gördük. Humanistlik bir daha ondan irəli gəlir ki, uzaqgörənlik xüsusiyyəti var. Dəfələrlə çoxsaylı görüşlərində Ermənistana xəbərdarlıq edərək, onları gələcəkdə konstruktiv mövqe tutmasalar, faciə gözləyəcək mesajını söyləyib. Birinci vitse-prezident anaların gözüyaşlı olacağı haqqında müraciətlər edib və ancaq düşmən onu eşitməyib. Hələ də eşitmir. Ermənistan faciə ilə qarşılaşdı. Ermənistan anaları göz yaşı ilə də qarşılaşdı. Əgər Azərbaycan oğulları öz torpaqlarının azadlığı uğrunda öz canından keçib və bu gün bizim analar qürur hissi ilə bunu qeyd edirlərsə, erməni anaların göz yaşlarının mənası tam başqadır. Ona görə də burada da dövlət rəhbərinin humanist addımları olub.

VIII Bakı forumunda yenə də müraciət etdi ki, Ermənistana sülh təklif eləmişik, sərhədlərin delimitasiya-demarkasiya məsələsini ortaya qoymuşuq. Ancaq hələ ki, təəssüflər olsun, cavab yoxdur.

***- Bir qədər əvvəl “Sülh sazişi imzalanacaqsa, müharibə o zaman bitəcək”, - dediniz. Ermənistan sülhə dəvət olunur, amma Prezidentin də dediyi kimi, cavab yoxdur. Ermənistanda bu sülh sazişinə qarşı etiraz çıxışları edilir. Son anda Ermənistan sazişin bağlanmasından geri çəkilə bilərmi?***

- Erməni hiyləsi nəyəsə əsaslanır. Bu, müəyyən bir dövlətin, güclərin erməniləri aktiv dəstəkləməsinin nəticəsidir. Ermənistanda bir qayda olaraq, dövlət başına kim gəlir-gəlsin, öz seçimində müstəqil olmayıb. Ermənistanda xarici və daxili müəyyən qüvvələrin maraqları ilə iştirak edən, onların sifarişlərini yerinə yetirən qüvvələr var. Bu gün Ermənistan xalqı sülhə “hə”, müharibəyə “yox” deyir. Seçkilərdə radikal düşüncəli siyasi rəqibləri qəbul etmədi. Paşinyan dövlət rəhbərliyinə gəlsə də, hələ ki, söz sahibi deyil. Sülh prosesinin ləngiməsi bununla bağlıdır. Ancaq başqa yolları yoxdur. Ermənistan parlamentində müəyyən fikirlər səslənir ki, sülh müqaviləsinin son bəndləri üzərində işləyirlər. Cənab Prezidentin dediyi kimi, Ermənistan istəsə də, istəməsə də bunu etməyə məcbur olacaq. Ermənistanın müharibə etməyə gücü yoxdur. Bu müharibə Ermənistanın sərsəm ideyalarının sonu olduğunu göstərdi. Digər tərəfdən, Azərbaycanın yanında güclü, qüdrətli, qardaş, dost Türkiyə var, Pakistan kimi dost dövlət var. Azərbaycanın haqq işini dəstəkləyən etibarlı tərəfdaşları var. Ona görə düşünürəm ki, artıq zaman, şərait dəyişib. Cənab Prezidentin VIII forumda post-pandemiya dövrünün gələcək dünyanın həyatı haqqında çıxışı oldu. Gələcək dünyanın bu regiona aid olan hissəsi məhz çiçəklənmə, inkişaf, hava limanlarının tikilməsi, Zəngəzur dəhlizi və digər kommunikasiya xətlərinin açılması ilə baş verəcək. Bu məsələ həll olunub sülh müqaviləsi bağlanandan sonra regionda vəziyyət tam dəyişəcək. Ermənistan dəyişəcək, dəyişmək istəməsə də Azərbaycan onu dəyişdirəcək.

***- Hərbi ekspert kimi sizi təqdim edirik.Torpaqların işğaldan azad olunması uğrunda əlinizdə silah döyüşmüsünüz. İstərdim, 44 günlük Zəfər Yoluna bir döyüşçü kimi də nəzər salasınız. Necə keçdik bu Zəfər Yolunu?***

- Bu Zəfər Yolu asan olmadı. Azərbaycan bu çətin müharibədə itkilər verdi. Düşmən çirkin müharibəsində bizim Gəncəni, Bərdəni raket atəşinə tutdu. Orada dinc sakinlərimiz - uşaqlar, yaşlılar, qadınlar həlak oldular. Biz onları da bu savaşın Şəhidləri kimi qəbul etdik. Müharibədə evlərimiz dağıldı, ağaclarımız kəsildi, torpağımız yandırıldı. Lakin uğurlu oldu. Ona görə ki, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Ali Baş Komandanının səyi, diqqəti nəticəsində güclü orduya malik dövlət olduq. Azərbaycanın iqtisadi potensialı, daxilində olan sabitlik, həyata baxışı onu güclü bir ordu kimi qalmağa imkan verdi. Hər bir müharibə cəmiyyət üçün yenilənmə deməkdir. Bizim cəmiyyətimiz artıq müharibə sınağından çıxdı, prioritetlər, baxışlar, gəncliyimiz yaxşılığa doğru dəyişdi. Müharibədə qazandığımız Zəfər Vətənimizin inkişafında yeni qələbələrə qədəm qoydu. “Yeni qədəmlərin, yeni qələbələrin mübarək Azərbaycan” deyirəm!

✍ *Tahirə*

# 10 Noyabr bəyanatı

**Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında üçtərəfli Bəyanatın imzalanmasının bir ili tamam oldu. 2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti hərbi təcavüzünə cavab olaraq Azərbaycan xalqı işğal altındakı torpaqların azad edilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsinə başlayıb. Noyabrın 8-də Şuşanın işğaldan azad edilməsi ilə Ermənistan məğlubiyyətini qəbul edib. Noyabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında Bəyanat imzalanıb. Bəs bir il ərzində bəyanatda əksini tapan müddəalarla bağlı hansı addımlar atılıb, tərəflər üzərlərinə götürdükləri öhdəliklərə nə dərəcədə riayət edirlər? Hafta.az politoloqlarla ictimai müzakirədə bu suallara aydınlıq gətirməyə çalışıb:**

◂ əvvəli 1-ci səhifədə

**Samir Hümbətov, politoloq:**

...Yəni rus ”sülhməramlıları”nın müvəqqəti nəzarət etdiyi Xankəndi şəhərində erməni əsilli Azərbaycan vətəndaşların yaşamalarına baxmayaraq oradan qovulmuş azərbaycanlıların geri qaytarılması məsələsi hələ ki gündəmdə görünmür.

Bəyannamənin 8-ci bəndində qeyd edilir ki, hərbi əsirlər, girovlar və digər saxlanılan şəxslərin, habelə cəsədlərin mübadiləsi həyata keçirilir. Burada diqqətçəkən ən önəmli məsələlərdən biri də odur ki, həmin maddədə qəti şəkildə qeyd edilməyib ki, I yaxud II Qarabağ savaşı dövründə. Bu da o deməkdir ki, I Qarabağ savaşı dövründən Ermənistanın əlində 4 minə qədər azərbaycanlı hərbi və mülki əsir qalıb.

Onların taleyi ilə bağlı da hansısa məlumat verilməli, sağ qalanlar geri qaytarılmalı, kütləvi şəkildə öldürülənlərin isə basdırıldığı yerlər göstərilməlidir. Bəyannamənin 9-cu bəndində qeyd edilir ki, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək.. Göründüyü kimi, 10 Noyabr bəyannaməsinin bəzi bəndləri icra edilməyib. Hətta müəyyən mənada demək olar ki, bu bəndlərin icrasını qəsdən yubadırlar.

**Elxan Şahinoğlu, politoloq:**

...Digər tərəfdən, qış ayları yaxınlaşdığına görə işğaldakı rayonları ordumuzda itki vermədən danışıqlar yolu ilə azad edilməsi vacib idi və buna nail olundu. Bunun qarşılığında mümkün variant kimi ermənilər yaşayan bölgələrdə rusiyalı hərbçilərin müvəqqəti yerləşidirlməsinə razılıq verildi. İkincisi, Azərbaycan Ordusu yalnız Dağlıq Qarabağın ətrafını - 7 rayonu deyil, Hadrut və Şuşanı azad edib və bu daha böyük uğurdur. Azərbaycan ordusu həm Dağlıq Qarabağın ətrafını azad etdi, həm də Dağlıq Qarabağın içərisinə daxil oldu.

Buna baxmayaraq, Qarabağla bağlı görüləcək işlərimiz var. Rusiyalı hərbçilərin 4 ildən sonra Qarabağı tərk etməsi, yerdə qalan separatçıların tərksilah olunması, Qarabağdakı ermənilərin Azərbaycan qanunlarına tabe olması və Laçın dəhlizinin nəzarətə götürülməsi hədəflərimiz var.

## Bir ildə nələr dəyişdi...

**Turan Rzayev, politoloq:**

...Ermənistan 44 günlük müharibənin ilk günlərindən bu müharibəni Aprel döyüşləri və ya Günnut əməliyyatları kimi qısa olacağını, Rusiyanın prosesə müdaxilə edərək tərəfləri yenə atəşkəs adı altında, masa arxasına oturdacağını düşünürdü. Rəsmi İrəvan müharibənin ilk günlərindən olduğu kimi bu düşüncədə də yanıldı. Azərbaycanın dayanmaq niyyəti yox idi.

Ermənistanın Baş naziri Nikol Paşinyan isə bunu anladıqda işişdən çoxdan keçmişdi. Məsələ ondadır ki, o, müharibəni dayandırmaq məqsədilə Rusiya Prezidenti Vladimir Putinə bir neçə dəfə müraciət etmişdi. Putin də öz növbəsində, müharibənin dayandırılması üçün təkliflər irəli sürmüş, hətta Rusiya sülhməramlılarının regiona gəlməsini təklif etmişdi. Lakin ölkə başçısı yaxşı anlayırdı ki, bir də belə ideal fürsət ələ keçməyəcək. Bilirdi ki, bütün təzyiqlərə baxmayaraq Ermənistanı dəstəkləyən ölkələr imdadına yetişə bilməyəcək. Nəticədə Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş nazirinin birgə imzaladıqları 10 Noyabr bəyanatı mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır.

İkinci Dünya müharibəsinin sonunda nasist Almaniyasının rəhbəri Adolf Hitler, yapon imperatoru Hiroito, Faşist İtaliyanın rəhbəri Benito Musolini də Nikol Paşinyan kimi kapitulyasiya aktı imzalamışdı. Həmin kapitulyasiya aktlarına baxdıqda da 10 noyabr bəyanatı ilə bənzərlik açıqca görünür. Bu mənada döyüş meydanında məğlubiyyətini dərk edən Ermənistan İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etdi və kapitulyasiya şərtləri ilə razılaşmalı oldu.

10 Noyabr bəyanatının 12 may 1994-cü ildə imzalanan atəşkəs müqaviləsinə bənzədilməsi doğru deyil. 10 Noyabr bəyanatını kapitulyasiya aktı edən başlıca məqam bəyanatda Ermənistanın öz üzərinə öhdəlik götürməsidir. Misal üçün, Azərbaycanın işğal altında olan Ağdam, Kəlbəcər və Laçın rayonları bəyanata uyğun olaraq bir güllə belə atılmadan işğaldan azad edildi. Qeyd edilən ərazilərin bir güllə belə atılmadan bəyanata uğun olaraq işğaldan azad edilməsi diplomatik qələbədir. Rusiya tərəfi Ermənistan ərazisi ilə Naxçıvan ilə dəhlizin yaradılmasını öz üzərinə götürüb.

Söhbət Zəngəzur dəhlizindən gedir. Bu gün də bu dəhlizin yaradılması üçün ciddi işlər gedir. Zəngəzur dəhlizi regionda aparılan 200 illik siyasətin fiaskoya uğraması deməkdir. Bu dəhliz Anadolu türkləri ilə Qafqaz, Mərkəzi Asiya türklərinin tək yol ilə gediş-gəlişini təmin edəcək. Yəni türk dünyasını bir-birinə qovuşduracaq. Zəngəzur dəhlizi ilə bağlı müddəa 27 illik danışıqlar prosesin müzakirə mövzusu olmayıb. Zəngəzur dəhlizi Prezident İlham Əliyevin şəxsi təşəbbüsü ilə son anda 10 noyabr bəyanatına daxil edilib. Bu mənada deyə bilərik ki, 10 noyabr bəyanatı Ermənistan üçün kapitulyasiya aktı, Azərbaycan üçün isə tarixi diplomatik qələbə sənədidir.

✍ *Tahirə Qafarlı*

# İqlim dəyişikliyinə qarşı qlobal səylər

## Layihə

***Bu gün dünyanın aparıcı ölkələri iqlim dəyişikliyindən narahatlıqlarını ifadə edirlər. Və bu prosesin Yer kürəsini fəlakətə sürüklədiyini önə sürürlər. Amma iqlim dəyişikliyinin baş verməsində "əsas" rol oynayan ölkələr nədənsə, bu prosesin qarşısının alınmasında maraqlı görünmürlər. Bu yaxınlarda Şotlandiyanın Qlazqo şəhərində keçirilən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının 26-cı Sessiyasında Pariş Sazişindən sonra 5 illik dövrün nəticələrinin müzakirəsi zamanı da məlum olub ki, əksər ölkələr sözügedən saziş çərçivəsində götürdükləri öhdəlikləri yerinə yetirmək istiqamətində ciddi addımlar atmayıblar.***



Azərbaycan isə qlobal emissiyalarda payının çox cüzi, 0,15 faiz təşkil etməsinə baxmayaraq bu yöndə fəaliyyətlərini davam etdirir. Hətta ölkəmiz sözügedən konfransda qlobal səylərə öz töhfəsini vermək məqsədilə yeni hədəflə çıxış edərək, 2050-ci ilə qədər əlavə könüllü öhdəlik kimi emissiyaların 40 faizədək azalmasını və işğaldan azad edilmiş ərazilərdə "netto sıfır emissiya" zonasının yaradılmasını bəyan edib. Tədbirdə eyni zamanda, "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyasının reallaşması və bu ərazilərdə "Yaşıl Enerji Zonası"nın yaradılması planları haqqında danışılıb. Konfransda həmçinin, iqlim dəyişmələrinin fəsadlarını minimuma endirmək üçün Azərbaycanda erkən xəbərdarlıq sisteminin yaradılması məqsədilə hidrometeoroloji müşahidə şəbəkəsinin modernləşdirilməsi barədə məlumat verilib.

Qeyd edək ki, bu gün dünyada bərpa olunan enerji mənbələrinə olan tələbat durmadan artmaqdadır. Məsələn, 2020-ci ildə dünya miqyasında ümumi gücü 260 QVt-dan çox olan bərpa olunan enerji stansiyaları istismara verilib ki, bu, 2019-cu ildəki rekordu təxminən 50 faiz üstələyir. Beynəlxalq Bərpa olunan Enerji Agentliyinin (IRENA) hesabatına görə, ötən il istismara verilmiş yeni elektrik enerjisi qoyuluş güclərinin 80 faizdən çoxunu bərpa olunan enerji təşkil edib, bunun 91 faiz isə günəş və külək enerjisinin payına düşüb. Ümumilikdə ötən ilin sonunda dünyada bərpa olunan enerjinin qoyuluş gücü 2 799 QVt təşkil edib, bu isə ümumi qlobal qoyuluş güclərinin üçdə biri deməkdir. Günəş və külək enerjisinin sürətli inkişafına baxmayaraq, hidroenerji hələ də 1 211 QVt qoyuluş gücü ilə ən böyük paya sahibdir.

Azərbaycanda günəşli günlərin il ərzində 2500-3200 saat arasında dəyişdiyini nəzərə alsaq, bu göstərici enerjinin istehsalı üçün yüksək səciyyələndirilə bilər. Bakıətrafı ərazilərdə ilin orta hesabla 250 günü küləkli olur. Hesablamalara görə, küləyin sürətinin saniyədə 3-4 m olması ondan elektrik enerjisi əldə etmək üçün kifayət edir. Bakıda isə küləyin orta illik sürəti saniyədə 11 metrdən çoxdur. Azərbaycan Energetika Nazirliyinin məlumatına görə, Azərbaycanın bərpa olunan enerji mənbələri üzrə potensialı 27000 MVt olaraq dəyərləndirilir. Bunun 23000 MVt-ı günəş, 3000 MVt-ı isə külək enerjisinin payına düşür.

> *"Ölkəmiz 2050-ci ilə qədər könüllü öhdəlik kimi götürdüyü emissiyaların 40 faizədək azalmasını tam şəkildə yerinə yetirəcək*



**Rauf Sultanov,**
AESMF-Prezidenti, Azərbaycan Dövət Pedoqoji Universitetinin professoru

Günəş enerjisi üzrə, demək olar ki, bütün ölkə ərazisində layihələrin həyata keçirilməsi mümkündür. Külək enerjisi üzrə isə Xəzər akvatoriyasında, Abşeron yarımadasında, Bakıda, habelə Xızı rayonu daha əlverişili sayılır. Bununla yanaşı, Qarabağ bölgəsinin də alternativ enerji potenisalı kifayət qədər yüksəkdir. İlkin qiymətləndirməyə görə, bölgənin günəş enerjisi potensialı 4000 MVt, külək enerjisi potensialı isə 500 MVt-dır. Günəş enerjisi əsasən, Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli rayonlarında, külək enerjisi isə Laçın və Kəlbəcər rayonlarında daha yüksək qiymətləndirilir. Kəlbəcər rayonunun dağlıq ərazilərində küləyin orta illik surəti 7-8 m/s təşkil edir ki, bu da külək enerjisinin istehsalı baxımından yüksək qiymətləndirilə bilər. Azərbaycanda yerli su ehtiyatlarının 25 faizinin Qarabağda formalaşdığı nəzərə alınmaqla, Tərtər, Bazarçay, Həkəri kimi əsas çaylar və onların qollarından elektrik enerjisi istehsalı əlverişli sayılır.

Ölkə Prezidentinin müəyyən etdiyi müasir inkişaf strategiyasında Qarabağın "yaşıl enerji" zonasına çevrilməsi isə mühim əhəmiyyət daşıyır. Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji zonası" elan edilməsi qlobal çağırışlara və müasir inkişaf tendensiyalarına uyğun strateji yanaşmanın məhsuludur. Çünki dövlət başçısı çıxışlarında dəfələrlə bu ərazilərin enerji təminatında bərpa olunan enerji mənbələrindən maksimum istifadə ediləcəyi, ekoloji təmiz, səmərəli innovativ texnologiyaların tətbiq olunacağı barədə qəti mövqeyini ifadə edib. Bu çərçivədə, may ayının 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncam imzalayıb. Dövlət başçısı bu ərazilərdə "yaşıl enerji" zonasının yaradılması ilə əlaqədar müvafiq konsepsiyanın və baş planın hazırlanması üçün ixtisaslaşmış beynəlxalq məsləhətçi şirkətin cəlb edilməsi məqsədilə 2021-ci ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Energetika Nazirliyinə 1 milyon 391 min 40 ABŞ dollarının manat ekvivalenti məbləğində vəsait ayrılmasını qərara alıb. Beləliklə, Azərbaycanın Energetika Nazirliyi ilə Yaponiyanın "Tepsco" şirkəti arasında işğaldan azad edilmiş ərazilərdə külək, günəş, hidro, geotermal və bioenerji kimi bərpaolunan enerji potensialından səmərəli istifadə, enerji səmərəliliyi texnologiyaları, müasir enerji idarəetmə yanaşmaları əsasında regionun enerji təminatını həyata keçirilməsi məqsədilə "yaşıl enerji" zonasının yaradılması ilə əlaqədar müvafiq konsepsiyanın və baş planın hazırlanması üzrə müqavilə imzalanıb.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Ekologiya və ətraf mühitin mühafizəsi

Məlumat üçün onu da vurğulayaq ki, "yaşıl enerji məkanı" növbəti onillikdə ölkəmizin Milli Prioritetləri və 2021?2025-ci illərdə sosial-iqtisadi inkişaf Strategiyasının əsas məqsədlərindən biridir. Bu isə həm də iqlim dəyişikliyi probleminə qarşı qlobal səylərə milli səviyyədə dəstəyi təmin edəcək bərpa olunan enerji mənbələrinin inkişafı, enerji səmərəliliyi, hidrogen istehsalı, ekoloji təmiz nəqliyyat vasitələrindən və digər "yaşıl texnologiyalar"dan istifadənin genişləndirilməsi, enerji sisteminin çevikliyinin artırılması və investisiyaların cəlbi məqsədilə qanunverici və tənzimləyici mühitin təkmilləşdirilməsi kimi kompleks tədbirlərin görülməsini şərtləndirir. Hazırda həyata keçirilən tədbirlər isə Azərbaycanın bərpa olunan enerji mənbələrinin inkişafında və Qarabağda yaşıl enerji zonasının yaradılmasında nə qədər istəkli və maraqlı olduğunu bir daha əyani şəkildə ortaya qoyur.

### Ekspert rəyi...

■ **Mövzu ilə bağlı hafta.az-a aşıqlama verən Azərbaycan Ekologiya Standartlarının Monitorinq Fondunun Prezidenti, Azərbaycan Dövət Pedoqoji Universitetinin professoru Rauf Sultanov bildirib ki, hazırda dünya miqyasında karbohidrogen ehtiyatlar tükənmək üzrədir:**

"Digər br tərəfdən karbohidrogen ehtiyatları dünyanın hər yerində bərabər şəkildə paylanmır. Buna görə də hazırkı dövrdə alternativ enerji mənbələrindən istifadə etmək ən aktual məsələlərdən biridir. Bu istiqamətdə müxtəlif texnologiyalar istifadə olunur. Alternativ enerji dedikdə su elektrik stansiyaları, günəş və külək vasitəsilə alınan enerji nəzərdə tutulur. Bu gün günəş panellərindən istifadə etmək dünya miqyasında geniş yayılıb.

Lakin bu, ümumi enerji mənbəyinin 1-2 fazini təşkil edir". Onun sözlərinə görə, alternativ enerji mənbələri ekoloji cəhətdən təmiz enerji mənbələridir: "Bunların ekoloji cəhətdən heç bir problemi yoxdur. Onların istifadəsində atmosferin, torpağın, suyun çirklənməsindən söhbət gedə bilməz. Ona görə də bu kimi enerji növlərindən istifadə müsbət haldır. Bərpa olunan enerji mənbələrindən istifadə ilə birgə enerji resurslarına qənaət atmosferə atılan tullantıların azaldılmasında əsas vasitələrdən biri hesab olunur. Bu baxımdan azad olunan ərazilərdə "yaşıl enerji zonası"nın yaradılması yaxşı ideyadır. Bununla Azərbaycan bir daha sübut edir ki, iqlim dəyişikliyi probleminə qarşı qlobal səylərə dəstəyi tamdır və bu addımlarla ölkəmiz 2050-ci ilə qədər könüllü öhdəlik kimi götürdüyü emissiyaların 40 faizədək azalmasını tam şəkildə yerinə yetirəcək".

***Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Türk Ordusu daha 1 il Azərbaycanda qalacaq

**Türkiyə hərbçilərinin Azərbaycanda qalma müddətinin uzadılmasına dair sənəd layihəsi Böyük Millət Məclisinin (TBMM) müzakirəsinə çıxarılıb. Hakim Ədalət və İnkişaf Partiyasının (AKP) TBMM-dəki qrup rəhbəri Bülənt Turan deyib ki, Türkiyə olaraq bölgədəki bütün problemlərlə maraqlanırlar. Türkiyənin tarixi kodları bütün bunları zəruri edir: "Azərbaycan sənədi, ötən il məclisdə HDP istisna olmaqla, bütün partiyaların dəstəyi ilə qəbul edilmişdi.**

Ümid edirəm ki, CXP son sənədə münasibətdəki yanlış mövqeyindən dönər, bütün partiyaların səs birliyi əsasında əsgərlərimizlə, təhlükəsizlik qüvvələrimizlə, dövlətimizlə azərbaycanlı qardaşlarımızın yanında olduğumuzu isbatlamaq imkanı taparıq".

B.Turan bildirib ki, dost və qardaş ölkə Azərbaycana əsgər göndərilməsinə dair sənədə bütün partiyaların səs verməsi, birlik və bərabərlik mesajı baxımından son dərəcə vacibdir. "Bu məsələlərdə bizə birlik-bərabərlik nümayiş etdirmək yaraşır. Əlbəttə, Məclisdə müzakirələr zamanı diskussiya, siyasi ziddiyyətlər, hətta qalmaqalların olması təbidir. Amma elə həssas məsələlər var ki, onlar müzakirə mövzusu deyillər. Azərbaycan sənədi də bunlardan biridir. İstəyərdik ki, bütün partiyalarımız istisnasız şəkildə sənədə səs versinlər", - B.Turan deyib.

Xatırladaq ki, Azərbaycana əsgər göndərilməsinə dair Cümhurbaşkanlığı sənədi, 2020-ci il noyabrın 17-də TBMM-in ümumi iclasında qəbul edilmişdi. Məclis, Türkiyə ilə Azərbaycan arasında Strateji Birlik və Qarşılıqlı Yardım Anlaşmasının tələblərindən qaynaqlanan öhdəliklərin yerinə yetirilməsi, atəşkəsin təsisi, xoşagəlməz halların qarşısının alınması, bölgədə sülh və sabitliyin yaradılması, Türk Silahlı Qüvvələrinin, Müştərək Mərkəzin vəzifələrinin icrası yönündə hərəkət etməsi üçün xarici ölkələrə göndərilməsi məqsədilə bir il müddətinə icazə vermişdi. Bu çərçivədə Türkiyə hərbçilərinin Azərbaycanda qalma müddətinin 17 noyabr 2021-ci ildən etibarən daha 1 il müddətinə uzadılması gözlənilir.



"Düşünürəm ki, CXP bu dəfə HDP-nin təsiri altına düşməyəcək və millətin yanında dayanaraq müzakirəyə çıxarılacaq Azərbaycan sənədinə qeyd-şərtsiz səs verəcək".

**Bu sözləri isə Türkiyə Böyük Birlik Partiyasının (BBP) sədri Mustafa Dəstici türk ordusunun daha bir il müddətinə Azərbaycanda qalmasına dair sənədin parlamentdə müzakirəyə çıxarılması ilə bağlı verilən sualı cavablandırarkən deyib.**

Dəstici əlavə edib ki, Azərbaycanla bağlı məsələlərə milli prizmada baxmaq lazımdır. Onun sözlərinə görə, CXP türk ordusunun İraqda və Suriyada qalmasına dair sənədlərə "hə" deməsinə rəğmən sonuncu səsvermədə "xeyr" deməsi bu partiyanın qəti mövqe nümayiş etdirmədiyini və milli maraqları ciddiyə almadığını göstərir:

"İnşAllah, həftə ərzində Prezident Admnistrasiyasından Məclisə daxil olacaq Azərbaycana əsgər göndərmə sənədinə, əlbəttə, PKK-nın siyasi qanadı olan HDP-dən gözləntimiz yoxdur, qalan bütün partiyaların yekdil səs verəcəyinə inanıram.

CXP Suriya və İraq məsələsində HDP-nin təzyiqlərinə dözmədi, onlar deyəni dedi. Bu gün xalqımızın CXP-dən gözləntisi odur ki, bu dəfə HDP-nin, yaxud da erməni lobbilərinin təsiri altında qalmadan can Azərbaycanımıza əsgər göndərmə sənədinə "hə" deyəcək. Məclisdə qrupu olan və ya olmayan bütün siyasi partiyalarımız bu məsələdə vahid mövqedən çıxış etməlidir", - BBP sədri deyib.

**Azərbaycan xalqını Qarabağ Zəfərinin 1-ci ildönümü ilə bağlı təbrik edən M.Dəstici bildirib ki, iki qardaş ölkənin ortaq yürütdüyü əməliyyatlar sonda zəfərlə yekunlaşdığı üçün, əslində bu Zəfər hər iki ölkənin xalqının bayramıdır.**

"Can Azərbaycanın Türkiyə Cümhuriyyəti və Türkiyə Silahlı Qüvvətləri ilə ortaq yürütdüyü Qarabağı işğaldan azad etmə hərəkatı zəfərlə başa çatdı. Bir daha başda Azərbaycan dövləti və azərbaycanlı qardaşlarımız olmaqla, bütün millətimizin Zəfər bayramını təbrik edirəm. Zəfər hamımızın, bütün türk dünyasının zəfəridir. Biz Qarabağdakı zəfərə sevinirik, o ərazilərin yenidən qurulmasına dəstək veririk. Suriya və İraq sənədlərinin səsverməsində bəlkə də CXP sədri ciddi düşünməyə bilər, amma milli mövqeyi mütləq nəzərdən qaçırmamalıdır.

Biz Azərbaycan başda olmaqla, qardaş və soydaş ölkələrimizlə iş birliyi quracağıq. Qarabağ ilk və son olmayacaq. Bundan sonra da bu hərəkatlar davam etdiriləcək. Bu yolla həm ətrafımız terrorçulardan təmizlənəcək, həm də işğal edilmiş torpaqlar azad edilərək əsl sahiblərinə qaytarılacaq", - M.Dəstici bildirib.

***Vüsal Tağıbəyli***

## XƏBƏRİNİZ OLSUN...



■ Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri çərçivəsində gömrük xidməti daha bir əməliyyat həyata keçirib. Bu barədə Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev "Twitter"də paylaşım edib.S.Mehdiyev bildirilib ki, ümumi çəkisi 622 kiloqramdan artıq narkotik vasitə - heroinin ölkənin gömrük sərhədindən keçirilməsinə cəhdin qarşısı alınıb.

■ Bu ilin oktyabr ayında Çində istehlak qiymətləri illik müqayisədə 1,5% artıb. Oktyabrda illik inflyasiya səviyyəsi son on üç ayın maksimumuna çatıb. Qeyd edilir ki, oktyabrda ərzaq məhsulları 2,4%, tərəvəzlər isə 16,6%, qeyri-ərzaq məhsulları 2,4%, o cümlədən yanacaq və kommunal ödənişlər 1,7% bahalaşıb. Xatırladaq ki, Çin 2021-ci il üçün inflyasiya hədəfini 3% səviyyəsində müəyyən edib.

■ "2018-ci ildə 25 milyon, 2019-cu ildə 133 milyon, 2020-ci ildə 346 milyon manat məbləğində əsassız və saxta pensiya işləri ləğv edilib". Bunu əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev deyib. Nazir deyib ki, cari ilin 10 ayı üzrə isə əsassız və saxta pensiya işlərinin ləğv edilməsi nəticəsində təqribən 500 milyon manat məbləğində vəsaitə qənaət edilib.



■ Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) İnsan resurslarının idarə edilməsi şöbəsinin müdiri Orxan Məhərrəmli vəfat edib. Bu barədə nazirlik məlumat yayıb. O. Məhərrəmli dünən gecə ürək tutmasından dünyasını dəyişib.

■ Almaniya münaqişənin dayanıqlı həlli üçün Azərbaycan və Ermənistanı öz səylərini gücləndirməyə çağırıb. Bu barədə Almaniya Xarici İşlər Nazirliyinin (XİN) Şərqi Avropa, Qafqaz və Orta Asiya üzrə ofisinin rəhbəri Matias Lüttenberq "Twitter"də bildirib. "9 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatdan bir il sonra biz Azərbaycan və Ermənistanı atəşkəs rejiminə tam riayət etməyə və hər iki ölkənin xalqlarının mənafeyinə uyğun olaraq münaqişənin dayanıqlı həlli üçün öz səylərini gücləndirməyə çağırırıq", - XİN rəsmisi qeyd edib.



■ Asiyada ən bahalı apartament Honkonqda 82 mln. ABŞ dollara satılıb. Bu barədə "South China Morning Post" xəbər verir. Söhbət milyarderlərin məskunlaşmağa üstünlük verdiyi "Mount Nicholson" yeni yaşayış kompleksində dəbdəbəli daşınmaz əmlakdan gedir. Razılaşmaya daxil olan üç parkinq yeri də daxil olmaqla mənzilin hər kvadrat futu (0,09 kv. metr) alıcıya 18 min dollara başa gəlib ki, bu da Asiya regionunda rekord qiymət sayılır.

■ "2022-ci ildə dövlət büdcəsində səhiyyə xərcləri üçün 1 milyard 789 milyon manat vəsait nəzərdə tutulub". Bunu maliyyə naziri Samir Şərifov deyib. Nazir bildirib ki, son 5 ildə səhiyyə üzrə xərclərin ümümdaxili məhsulda (ÜDM) payı artıb.

■ Amerikalı iş adamı İlon Mask sahibi olduğu "Tesla" şirkətinin səhmlərinin ucuzlaşması səbəbindən iki günə 50 mlrd. dollardan çox vəsait itirib. Bu barədə "Bloomberg" yazır.

# Manatın məzənnəsi sabit saxlanılmalıdır

**İqtisadiyyat**

***Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) professoru, iqtisadçı ekspert Elşad Məmmədov hafta.az-a müsahibəsində ölkədəki mövcud iqtisadi-sosial durumu xarakterizə edib. 2020-ci ildən bəri ərzaq və digər malların xeyli bahalaşması, suyun və enerjidaşıyıcılarının, qazın, elektrikin qiymətindəki artım, eləcə də bir sıra dövlət rüsumlarında gözlənilən artımlar və s. ilə bağlı mülahizələrini bölüşüb, manatın devalvasiyası barədə proqnozlarını səsləndirib.***



**Elşad Məmmədov,**
Azərbaycan Dövlət İqtisad Universitetinin professoru, iqtisadçı ekspert

## Oliqarx məmurlar iqtisadiyyatımıza ciddi zərbələr vururlar

***- Azərbaycandakı hazırkı iqtisadi-sosial durumu necə xarakterizə edərdiniz?***

- Bütövlükdə ölkə iqtisadiyyatına çoxyüklü xarici təsirlər mövcuddur. İlk növbədə, dünya iqtisadiyyatındakı böhran və ayrıca inflyasiyanın kəskin şəkildə artması Azərbaycan iqtisadiyyatına inflyasiyanın praktiki olaraq idxal olunmasını şərtləndirir. Biz görürük ki, ölkə əhalisi günbəgün bu qiymət artımı ilə üz-üzə qalır. Eyni zamanda əgər büdcə göstəricilərinin icrasına baxsaq, onlar icra olunur. Ölkə iqtisadiyyatı bütövlükdə idarə olunan formada inkişaf edir. Həmçinin sosial layihələr reallaşdırılır. Əməkhaqqılarının ödənilməsi, sosial ödənişlərlə bağlı hansısa bir ciddi ləngimələr yoxdur. Yəni ümumən iqtisadiyyatda sabitlik qorunur. Qeyd etmək lazımdır ki, bir tərəfdən, xarici iqtisadi təsirlər çox güclüdür. Digər tərəfdən, gündən-günə mürəkkəbləşən iqtisadi çağırışlar kontekstində Azərbaycanda mütərəqqi idarəetmə qərarlarının qəbul edilməsinə böyük ehtiyac var. Bir sıra istiqamətlər üzrə, deyərdim ki, təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi tələb olunur...

### İdxaldan asılılıq

***- İlin əvvəlindən bəri Azərbaycanda ərzaq və digər mallar xeyli bahalaşıb, xüsusən suyun və enerji daşıyıcılarının, qazın, elektrikin qiyməti, az da olsa, artırılandan və maaş və pensiyaların artacağı haqda xəbər yayılandan sonra qiymətlərdə tədrici, qəpik-qəpik bahalaşma daha da intensivləşib. Bu artımlar yalnız hansısa real xarici təsirlərdən və daxildəki gerçək iqtisadi zərurətdən yaranıb, yoxsa subyektiv amillərin rolu da var?***

- Azərbaycandakı iqtisadi proseslərə, o cümlədən qiymət artımına xarici iqtisadi təsirlər danılmazdır. Bunu etiraf etmək lazımdır. O da var ki, biz inflyasiyanı idxal edirik. Faktiki olaraq idxaldan asılılıq çox yüksək səviyyədədir. İstehlak bazarında bu idxaldan asılılığın yüksək olması bizi kəskin çağırışlarla üz-üzə qoyur. Digər tərəfdən, idxaldan asılılığın yüksək olması iqtisadi siyasətdəki problemlərlə bağlıdır...

Azərbaycan kifayət qədər həm təbii, həm əmək resurslarına, həm də potensial kapitalın, o cümlədən sənaye kapitalının inkişafı imkanlarına malik olan bir ölkədir.

Ölkə əhalisinin məşğulluğunun artımı nöqteyi-nəzərindən, sosial vəziyyətin yaxşılaşdırılması baxımından, həm də yerli istehsalın formalaşması üçün kifayət qədər böyük potensial var. Əgər biz idxaldan asılılığımızı effektiv şəkildə həyata keçirə bilsək, bununla ölkəyə inflyasiyanın idxalının qarşısının xeyli dərəcədə ala bilərik...

Təəssüflər olsun ki, beynəlxalq qurumların tövsiyələri ilə Mərkəzi Bank və hökumətin iqtisadi bloku son qəbul etdiyi qərarlarla, hesab edirəm ki, bir sıra problemlərin daha da dərinləşməsinə şərait yaradır. Məsələn, Mərkəzi Bank pul-kredit siyasətini bir qədər də sərtləşdirib, uçot dərəcəsini artırıb. Bunu da başa düşdüyümüz qədər onunla əsaslandırır ki, biz inflyasiya ilə mübarizə aparırıq. Halbuki, inflyasiyanı Azərbaycana xaricdən gətiririk. Biz burada - Bakıda daxili bazar üçün uçot dərəcəsini artırmaqla inflyasiya ilə necə mübarizə apara bilərəyik? Məgər bizdə, əhalidə, iqtisadiyyatda artıq pul kütləsi var ki, siz pul kütləsini sıxmaqla, azaltmaqla inflyasiya



ilə mübarizə aparırsınız? Yəni bu gün qeyri-adekvat qərarların qəbul olunmasını, sözsüz ki, dəstəkləmirəm. Hesab edirəm ki, eyni zamanda ölkədə investisiyaların kəskin şəkildə artımına ehtiyac var.

> Rüsum artımıyla, tarif artımıyla iqtisadi inkişafa nail olmaq çox çətin məsələdir

Bank sektoru burada öz rolunu oynamalıdır. İqtisadiyyat investisiyaların vasitəsilə inkişaf etməlidir. Dünya iqtisadiyyatında, iqtisad elmində bunun üçün başqa bir düstur yoxdur.

Sizin ümumi iqtisadiyyatınızda investisiya azalırsa, iqtisadiyyatda hansı artıma nail ola bilərsiz? Bir sözlə, hesab edirəm, iqtisadi sahədə kəskin şəkildə təxirəsalınmaz tədbirlərin reallaşdırılmasına ehtiyac var. Bir tərəfdən, yerli istehsal inkişaf etməlidir. Bunun üçün investisiyalar artırılmalıdır. Digər tərəfdən, təbii inhisarlar dondurulmalıdır. Suyun, qazın, elektrik enerjisinin qiymətlərinin artımı məsələsi ən azı 3 illik dondurulmalıdır. 3 il təbii inhisarlar sabit şəkildə işləməlidir. Bununla biz ölkə iqtisadiyyatına investisiyaların axınına şərait yarada bilərik.

Təsəvvür edin, əgər bir iş adamı sərmayə qoymaq istədiyi hər hansı bir ölkədə üç aydan sonra tariflərin hansı səviyyədə olacağını bilmirsə, oraya investisiya yatırarmı? Bu, reallıqdır. Ona görə də hesab edirəm ki, valyuta məzənnəsi necə sabit saxlanılırsa, tariflər də sabit saxlanılmalıdır.

Eyni zamanda ölkədə investisiyaların həcmi kəskin şəkildə artırılaraq birbaşa investisiyaların ümumi daxili məhsula nisbəti, heç olmasa, 30 faizə çatdırılmalıdır. Əgər Azərbaycan hökuməti, Mərkəzi Bank bu hədəfləri reallaşdırsa, düşünürəm ki, dövlət başçımız tərəfindən hökumət qarşısında, bank sektoru qarşısında qoyulan problemlər xeyli dərəcədə həllini tapar...

### Rüsumların artırılması

***- Son günlər bir sıra dövlət rüsumlarında da artım olacağı haqda xəbərlər yayıldı. Xaricdən gətirilən mobil telefonlara ödənilməli rüsumlar, eləcə də daşınmaz əmlaka mülkiyyət və digər əşya hüquqlarının dövlət qeydiyyatına alınması ilə bağlı sənədlərin verilməsi və s. üçün tutulan dövlət rüsumlarının məbləğinin artırılacağı gözlənilir. Məsələ bu günlərdə parlamentdə müzakirə olundu. Bunu necə şərh edərdiniz?***

- Bəzi dövlət rəsmilərinin mediada belə bir tezislərinə rast gəldim ki, guya bir sıra dövlət rüsumlarının artırılması büdcəyə 100 milyon manatdan artıq vəsaitin daxil olmasına şərait yaradacaq. Bu gün Azərbaycan nefti dünya neft bazarında təqribən 90 dollara yaxın qiymətə satılır. Eyni zamanda, çox güman ki, neftin qiyməti bizim büdcədə hələ 2022-ci ildə də 40-45 dollardan müəyyən ediləcək. İndi sual olunur, son aylarda neftin qiymətində yaranan fərq artıqlamasıyla imkan vermirdimi ki, biz nə rüsumları artıraq, nə qazın, nə suyun, nə də elektrik enerjisinin qiymətini qaldıraq. Yəni bilirsiz, bütün bunlar iqtisadi cəhətdən rahat şəkildə əsaslandırıla bilər. Ona görə də hesab edirəm ki, rüsum artımıyla, tarif artımıyla iqtisadi inkişafa nail olmaq çox çətin məsələdir. Bu, hökumətin ən son variantı olmalıdır. Əgər rüsum, yaxud tarif artımı üçün hansısa dövlət qurumu Tarif Şurasına müraciət edirsə, demək, həmin qurum hazırkı Azərbaycan iqtisadiyyatının imkanlarını nəzərə almır. Ona görə də hesab edirəm, mütləq şəkildə iqtisadi siyasətdə investisiya, innovasiya tutumlu iqtisadi inkişafa yönəlik bir qərar qəbul etməliyik, strateji planlşadırmaya söykənən iqtisadi idarəetmə modeli tətbiq etməliyik. Və bizim illik 5-7-8 faizlik iqtisadi artıma nail olmamız üçün Azərbaycan iqtisadiyyatında tam şəkildə potensial imkanlar mövcuddur...

### Manatın məzənnəsi

***- Manatın növbəti devalvasiyaya uğrayacağı haqda qeyri-rəsmi informasiyalara münasibətiniz necədir?***

- Hesab edirəm ki, manatın devalvasiyası üçün heç bir əsaslı, fundamental səbəb yoxdur. Azərbaycanda manatın məzənnəsi Mərkəzi Bank tərəfindən müəyyən olunur. Fikrimcə, ölkədə üzən məzənnə yoxdur və yaxşı ki, yoxdur. Üzən məzənnənin tətbiqi çox ciddi problemlərə səbəb ola bilər. Mərkəzi Bankın bu istiqamətdəki fəaliyyətini dəstəkləyirəm. Azərbaycanda manatın məzənnəsi sabit saxlanılmalıdır. Tətbiq olunan valyuta məhdudiyyətləri bir qədər də genişləndirilməlidir ki, Azərbaycandan irihəcmli valyuta axınının qarşısı alınsın və manat sabit saxlanılsın. Bunun müəyyən mənfi nəticələri də var. O nəticələr xeyli dərəcədə onunla izah olunur ki, bizim qeyri-neft sektoru üzrə əsas xarici ticarət tərəfdaşlarımız Rusiya, Türkiyə, İran və Gürcüstanda valyutalar devalvasiyaya uğradı, amma biz tərəziyə qoymalıyıq. Yəni valyutamızın sabitliyi bizə hazırkı iqtisadi şəraitdə dəfələrlə daha çox vacibdir, nəinki bizim əsas ticarət tərəfdaşlarımızdakı devalvasiyalar. Əgər valyuta məzənnəsi sabit olmasa, bütün investisiya prosesi, ölkə iqtisadiyyatında artımla, iqtisadi inkişafla, sosial siyasətlə bağlı olan çağırışlar və onların adekvat cavablandırılması, bütün bu məsələlər çox ciddi risk altına qoyulacaq. Ona görə manatın məzənnəsi sabit şəkildə saxlanılmalıdır.

Ölkəyə daxil olan valyuta ölkədən çıxan valyutanı xeyli dərəcədə üstələyir. Belə olan halda, eyni zamanda Azərbaycanın 50 milyarda yaxın suveren qızıl valyuta ehtiyatları olduğu halda manatın məzənnəsinin dəyişməsinə, devalvasiyaya getmək, hesab edirəm ki, absurddur və buna heç bir halda yol vermək olmaz...

### Korrupsiya ilə mübarizə

***- Bildiyiniz kimi, artıq 10 ildən çoxdur, yəni 2011-ci ilin əvvəlindən bəri ölkə başçısı Azərbaycanda korrupsiyaya qarşı rəsmən mübarizə elan edib. Sizcə, hazırda korrupsiyanın, kölgə iqtisadiyyatının Azərbaycandakı iqtisadi və maliyyə proseslərinə təsiri nə qədərdir?***

- Öncə onu deyim ki, doğrudan da korrupsiya ilə mübarizə nöqteyi-nəzərindən müsbət trendlər mövcuddur. Eyni zamanda hesab edirəm ki, bütövlükdə ölkə iqtisadiyyatının ağardılması istiqamətində çox işlər aparmalıyıq. Həmçinin qanunvericiliyə vacib dəyişikliklər edilməlidir. Ölkədən kapitalın qaçışının, faktiki olaraq iqtisadiyyatın sütununa zərbə vuran kapital çıxarışının qarşısı mütləq şəkildə alınmalıdır. Bu, ən böyük problemlərdən biridir. Təəssüflər olsun ki, müxtəlif beynəlxalq müstəvilərdə hansısa azərbaycanlı oliqarxların hansısa xarici ölkələrdəki hesabları, yaxtalarıyla bağlı məsələlər qaldırılır.

Bu işlər mütləq araşdırılmalıdır və korrupsiya ilə mübarizə, sözsüz ki, 300-500-1000 manatlıq məsələlər ətrafında deyil, daha çox milyonlar ətrafında qurulmalıdır. Ona görə ki, bu gün Azərbaycanda ölkənin sərvətləri, gəlirləri hesabına xeyli dərəcədə zənginləşən oliqarx məmurlar iqtisadiyyatımıza ciddi zərbələr vururlar. Bu, artıq vicdansızlıqdır ki, bu dövlətin, bu xalqın hesabına qazandıqları vəsaitləri belə, heç olmasa, investisiya şəklində öz ölkələrinə, yəni Azərbaycana yatırmırlar. Əksinə, ölkədən çıxarıb hansısa başqa bir ölkənin iqtisadiyyatına yatırırlar.

> Təsəvvür edin ki, bu milyardlarla vəsait Azərbaycan iqtisadiyyatında dövriyyə etsəydi, bizim bu gün ümumdaxili məhsulumuz bəlkə də iki dəfə indikindən çox olardı...

Bunu mən cinayət kimi dəyərləndirirəm və hesab edirəm ki, qanunvericilikdə bu məsələ ilə bağlı dəyişikliklər edilməlidir. Və bu kimi hallarla effektiv mübarizə aparılmalıdır. Təsəvvür edin ki, bu milyardlarla vəsait Azərbaycan iqtisadiyyatında dövriyyə etsəydi, bizim bu gün ümumdaxili məhsulumuz bəlkə də iki dəfə indikindən çox olardı...

### Yeni iqtisadi idarəetmə modeli

***- Elşad müəllim, Böyük Qayıdışın perspektivlərini necə dəyərləndirirsiniz? Belə bir durumda buna tezliklə nail ola biləcəyikmi?***

- Açığı, işğaldan azad olunmuş ərazilərin bərpasıyla bağlı ümidlərim dövlət başçısı tərəfindən nümayiş etdirilən siyasi iradəyədir. Yeri gəlmişkən, Prezident özü də çıxışlarında qeyd edib ki, Azərbaycanda yeni iqtisadi idarəetmə modelinə ehtiyac var. Və mən çox inanıram ki, necə ki, dövlət başçısı xarici siyasətdə və torpaqlarımızın azad olunmasında bu cür nailiyyətlərə imza atdı, ölkədə yeni iqtisadi idarəetmə modeli də reallaşdırılacaq.

Yalnız o halda biz işğaldan azad torpaqlarımızda rəqabət qabiliyyətli, yüksək texnoloji tutumlu iqtisadi sistem qura bilərik. Sözsüz ki, bu iqtisadi sistem yalnız o əraziləri əhatə etməyəcək, bütövlükdə ölkədə tətbiq ediləcək. Bununla Azərbaycanın dünya iqtisadiyyatında xammal ölkəsi kimi deyil, çox yüksək texnoloji tutumlu istehsalı reallaşdıra biləcək və ixrac edə biləcək ölkə kimi mövqeləşməsini təmin edə biləcəyik...

✍ Sultan Laçın

# Şanlı Zəfər tariximiz Xorvatiya mətbuatında

***Milli Məclisin deputatı, Azərbaycan-Xorvatiya parlamentlərarası işçi qrupunun rəhbəri Könül Nurullayevanın Zəfər Günü və Vətən müharibəsinin bir ili münasibətilə Xorvatiyanın nüfuzlu mətbuat orqanında məqaləsi dərc olunub. "Azərbaycanın böyük qələbəsi Cənubi Qafqaza inkişaf və sülh gətirdi" sərlövhəli məqalədə bir il əvvəl Azərbaycanın böyük qələbəyə imza atdığını qeyd edən millət vəkili yazır ki, beynəlxalq münasibətlərdə müşahidə edilən ikili standartlardan istifadə edən Ermənistan təqribən 30 il ərzində Azərbaycan ərazilərinin 20 faizini işğal altında saxlaya bildi.***

Həm öz ərazisində, həm də işğal etdiyi torpaqlarda azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirdi: "1992-ci ilin fevralında ermənilər Xocalıda 106-sı qadın və 63-ü uşaq olmaqla 613 nəfər azərbaycanlını etnik mənsubiyyətinə görə qətlə yetirərək soyqırımı törətdi. Bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün həyatı yaşamağa məcbur oldu. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilən və Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə 27 il ərzində icra edilmədi.

Ermənistan istər işğal siyasətinə görə, istərsə də BMT qətnamələrini icra etmədiyi üçün cəzalandırılmadı". Nəticədə Ermənistanın Azərbaycana məxsus ərazilərdə işğalı möhkəmləndirdiyini, hərbi cinayətlər törətdiyini yazan K.Nurullayeva qeyd edir ki, bu müddətdə ermənilər Azərbaycan xalqının mədəni və dini irsinə qarşı da terror törətdi.

Məqalədə 1994-cü ilin may ayından etibarən münaqişə tərəfləri arasında atəşkəs razılaşmasına rəğmən Ermənistanın ovaxtkı təmas xəttində və sərhəddə intensiv şəkildə təxribatlar törətdiyi xatırladılır. 2020-ci il sentyabr ayının 27-də Ermənistanın Azərbaycana qarşı irimiqyaslı hərbi təxribata başladığı vurğulanır: "Azərbaycanın döyüş bölgəsinə yaxın ərazilərdə yerləşən Tərtər və digər şəhərləri 44 gün ərzində Ermənistan silahlı qüvvələri tərəfindən ağır artilleriya atəşinə məruz qaldı. Ermənistan döyüş bölgəsindən uzaqda yerləşən Gəncə, Bərdə, Mingəçevir, Qəbələ, Siyəzən və digər şəhərlərə qarşı ballistik raketlərdən istifadə etdi. Azərbaycanlı mülki əhali arasında böyük sayda insan itkisinə səbəb olmaq məqsədilə ağır artilleriya, qadağan olunmuş silahlardan, ağ fosfor və kasetli sursatlardan istifadə etdi. Nəticədə 11-i uşaq olmaqla 94 mülki şəxs qətlə yetirildi, 400-dən artıq insan yaralandı. Ermənistan Silahlı Qüvvələrinin təxribatlarına cavab vermək təbii ki, Azərbaycanın suveren hüququ idi. Elə bu təxribatlara cavab olaraq əks-hücum əməliyyatına başlayan Azərbaycan Ordusu 44 gün ərzində 30 illik işğala son qoydu".

K.Nurullayeva yazır ki, Azərbaycan döyüş meydanında öz tarixi torpaqları uğrunda ləyaqətlə mübarizə apardı.

Qarşı tərəfin yalnız hərbi hədəfləri zərərsizləşdirildi.

Hərbi əməliyyatlar zamanı Azərbaycanın qazandığı uğurlar işğalçını təslim olmağa məcbur etdi. Azərbaycan və Rusiya prezidentləri və Ermənistanın baş naziri tərəfindən 2020-ci il noyabrın 10-da üçtərəfli Bəyanatın imzalanması nəticəsində



**Könül Nurullayeva,**
Milli Məclisin deputatı

> Müharibənin başa çatmasından ötən 1 il ərzində işğaldan azad olunan Qarabağ və Şərqi Zəngəzur bölgəsində irimiqyaslı bərpa-quruculuq işləri aparılır

Azərbaycanın işğal altında olan digər əraziləri də azad edildi.

Məqalədə qeyd olunur ki, bu gün Cənubi Qafqaz regionunda yeni reallıq yaranıb. Bu reallığı Azərbaycan yaradıb. İşğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işləri aparan Azərbaycan regionda Ermənistanın da iştirakı ilə geniş əməkdaşlıq mühitinin yaradılmasında maraqlıdır: "Müharibənin başa çatmasından ötən 1 il ərzində işğaldan azad olunan Qarabağ və Şərqi Zəngəzur bölgəsində irimiqyaslı bərpa-quruculuq işləri aparılır. Cəmi 8 aya inşa olunan beynəlxalq statuslu Füzuli Hava Limanı Qarabağın hava qapısıdır və artıq öz sərnişinlərini qəbul edir. Hazırda daha 2 hava limanı inşa olunmaqdadır. 4 şəhərin baş planı hazırlanıb, smart şəhər və kəndlər salınır. Azərbaycan bu işlərin hər birini öz maliyyə vəsaiti hesabına həyata keçirir".

K.Nurullayeva yazır ki, Ermənistan işğal dövründə minaladığı ərazilərin xəritəsini verməməklə bərpa prosesinə mane olmağa çalışır. Belə ki, Ermənistanın bu vaxta qədər təqim etdiyi mina xəritələrinin dəqiqliyi cəmi 25 faiz təşkil edir.

Bu məsələdə də ciddi təzyiqlər olmalı, bölgənin rifahı üçün Ermənistan minalı ərazilərin xəritəsini təqdim etməyə məcbur edilməlidir. Millət vəkili həmçinin Azərbaycanın haqq işinə dəstək verdiyi üçün rəsmi Zaqrebə də təşəkkür edib.

✍ Azad

# Ermənilərə dövlət yaradan Rusiya olub

## Müsahib

**_Noyabrın 8-də Zəfər tariximizin 1 ili tamam oldu. Ölkə ictimaiyyəti diplomatik mübarizədə və sərhədlərin müəyyənləşməsi prosesində müsbət nəticələrin olacağını gözləyir. Regionda əsas güclər olan Türkiyə, Azərbaycan və Rusiyanın iştirakı ilə açılan Zəngəzur yolunda və sərhədlərin yenidən müəyyənləşməsində hansı dövlətin şərtlərinin əsas götürüləcəyi mübahisə doğurur. Maraqlıdır, bu gün hansı proseslərə şahidlik etməkdəyik? Hafta.az-ın müsahibi Qafqazşünaslıq İnstitutunun Ermənişünaslıq şöbəsinin müdiri, tarix elmləri doktoru Qasım Hacıyevdir:_**

“

*Heç kəs, heç bir fakt erməniləri Cənubi Qafqazda aborigen xalq kimi tanımır*



**Qasım Hacıyev,**
Qafqazşünaslıq İnstitutunun Ermənişünaslıq şöbəsinin müdiri, tarix elmləri doktoru

***- Bu gün regionda ciddi hadisələr baş verir. Vaxtilə bölünüb erməniyə verilən Zəngəzura yol salınır. Gəlin Zəngəzurla bağlı tariximizə bir baxış edək. Zəngəzur niyə bölündü və bu gün Qarabağdan çəkilən o yol bizi tarixi torpaqlarımızla birləşdirirmi?***

- Zəngəzurun bölünüb vaxtilə Azərbaycan ərazisindən ayrılması Azərbaycanın taleyinə vurulan ən böyük zərbələrdən biridir. Bu gün Zəngəzur dəhlizinin açılması tək Azərbaycan yox, bütün türk dünyasının bayramı kimi qeyd olunmalıdır. İnanıram ki, bu dəhliz açılacaq, nəinki Türkiyəni, Azərbaycanı, Naxçıvanı birləşdirəcək. Bütün Türk Dünyasının gözəl yoluna, bayramına çevriləcək.

Zəngəzura qədər Azərbaycan dövlətinin ətrafında çox mürəkkəb proseslər gedib. XIX əsrin əvvəllərinə qədər böyük dövlətçilik ənənəsi olan Azərbaycanın dövlətçiliyinə çox böyük zərbə vurulub. Bu, Azərbaycan xanlıqlarını işğal edərək Vətənimizin iki yerə bölünməsi oldu. Azərbaycanın iki yerə bölünməsi xalqımız üçün nə qədər böyük zərbə, bəla idisə, ermənilərin bu ərazilərə köçürülüb məqsədli şəkildə yerləşdirilməsi ondan da artıq bəla idi. İndiki İrəvan-Qərbi Azərbaycan və Qarabağ ərazilərinə ermənilərin üstünlüyünü təşkil etmək üçün imperiya hər cür siyasət işlətdi, planlar qurdu və burda azərbaycanlıların sıxlaşdırılması prosesi getdi. Bu XIX əsrin axırına qədər davam elədi. 1905-1906-cı illərdə azərbaycanlıların sıxışdırılıb-çıxarılması məqsədilə silahlanmış ermənilər tərəfindən azərbaycanlıların kütləvi qırğını başladıldı. 1918-ci ildə soyqırımı törədildi. Nəhayət 1918-ci ildə Şərqdə ilk demokratik cümhuriyyəti qurduq. Ermənilərə İrəvan şəhəri, əlavə ərazilər də verildi və dövlət yaradıldı. Bu mənfurlar yerində oturmadı, heç nə ilə razılaşmadı. Hətta gürcüləri öyrədib öz tərəflərinə çəkdilər. Azərbaycanın Xalq Cümhuriyyətinin dadını çıxarmağa imkan vermədilər.

Bakı şəhərində, Qubada, Gəncədə, Xaçmazda, Neftçalada, Kürdəmirdə, Şamaxıda, Qarabağın hər yerində qırğınlar törədildi. Eyni zamanda həmin dövrdə İrəvandan Zəngəzura qədər olan ərazilərdə 200-dən artıq kəndi yer üzündən sildilər, əhalisinin qırdılar.

Şərur-Dərələyəz vilayəti Naxçıvanın tərkibindən alınaraq Moskva tərəfindən ermənilərə verildi. Zəngəzurdakı sonrakı işğalçı yürüşlər başlandı. Beləliklə, Zəngəzur ərazisində çoxlu qırğın baş verdi.

Yazılan məlumatlara görə, 5 minə qədər adam öldürüldü. O ərazilərdə yaşayan əhalinin 149 mini türk idi, 90 minə qədər kürd, 80 minə qədər digər xalqlardan tayfalar, o cümlədən ermənilər var idi. Böyük imperiyanınköməkliyi ilə xırda bir toplum olan erməni Zəngəzurda böyük qırğınlar törətdi. Şərur-Dərələyəz onlara veriləndən sonra belə bir mənfur fikir də ortaya atıldı. Guya, Zəngəzur əyaləti neytral zonadır, yəni heç kimə aid deyil, nə Azərbaycanındır, nə də Ermənistanın. Bundan sonra Zəngəzurun bölünməsi prosesi, Zəngəzurun yarısının ermənilərə verilməsinin əsası qoyuldu.

***- Qasım müəllim, erməni məkrini qüvvətləndirən havadar dövlət kimi Rusiyanı qeyd etdiniz...***

- Heç kəs, heç bir fakt erməniləri Cənubi Qafqazda aborigen xalq kimi tanımır. Başqalarının problemləri içərisində özlərinə məcburi yer tuturlar. Təsadüfi deyil ki, onlara 9,8 min kvadrat-kilometr yer verilmişdi. Zəngəzuru onlara verməyə məcbur etdilər və Azərbaycan Kommunist Partiyası bu barədə qərar çıxardı. Bu əraziləri yarı böldülər. Bunlar azmış kimi, Göyçə vilayəti də onlara verildi. Ermənistanın əraziləri 28,5 min kvadrat-kilometrə çatdırıldı. Əhalisi imkan vermədən, ərazisi olmadan, heç vaxt kompakt yaşamadıqları ərazilərdə ermənilərə dövlət yaratdılar. Bax, buna görə də şirnikləşən ermənilər həmin şəraiti onlara yaradanlara diz çökdü və əllərinə silah verilən kimi, başqalarının qarşısında əjdahaya dönüb Azərbaycanda hər cür vandalizm törətdilər.

Bütün dünya bilməlidir ki, bunların separatizm, terrorizmdən başqa heç nəyə qabiliyyətləri çatmır. Biz burada Rusiyanın adını çəkməyə məcburuq. Faktların içindən o çıxır. Biz onu ora salmırıq, o özü orada yerləşib. Ermənilərə dövlət yaradan Rusiya həmişə onu himayə edib.

***- Putin yenə də Azərbaycanı ermənilərə münasibətdə kompromisə dəvət edir...***

- Rusiyanın ermənilərə bu qədər şərait yaratmasna baxmayaraq, görünür, erməni öz mənfurluğundan əl çəkmir. Onlarda erməni xəstəliyi var. Biz onların xarakterini bilirik. Belə tayfa heç vaxt yaxşılığın qədrini bilməz. Qarabağ müharibəsi ərəfəsində İrəvan küçələrində Rusiyanın əleyhinə şüarlar səsləndirilirdi, ittihamlar irəli sürülürdü. Sanki bunlar çox şeylərə nail ola bilərmişlər, Rusiya bunlara mane olub. İndiki dövlət başçısı əvvəlkilərindən fərqlənir. Bütün reallığı başa düşə bilmirlər. Buna baxmayaraq Paşinyanın özü də sağa-sola çox vurdu. Gah Avropa mövqeyi tutdu, gah Rusiyanın tərəfini saxladı. Bu hiyləgər siyasətin üstü açıldı. Açılandan sonra Rusiya başa düşdü ki, ermənilərin nazı ilə bu qədər oynamağın axırı yoxdur. Bunlar qədirbilən deyil. Baxın, Ermənistanda 4 milyon əhali olmalıdır. Onun 2 milyonu yoxdur. Bəziləri Rusiyaya gedib, yerdə qalanı Avropaya. İmkanı olan yerdə qalanlar da gecə-gündüz yuxuda Avropanı görür. Onlar da qaçmaq istəyirlər. Rusiya siyasətçiləri bunu başa düşəndən sonra fikirləşirlər ki, artıq zaman dəyişir, bu cür getməz.

Zamanın çox böyük bir yeniliyi də odur ki, 300 ildən artıqdır hələ Türk dünyasının indiki qədər böyük imkanı, şansı olmayıb.

İndiki hadisələrin gedişində Türkiyə dövlətinin çox böyük rolu var. Bunu heç kəs dana bilməz. Azərbaycanın geriyə qayıdışı yoxdur, ancaq irəli. İlham Əliyev kimi cəsur, uzaqgörən Prezidentimiz var. O, Türkiyənin Azərbaycana bağlılığını yaxşı bilir. Ardıcıl siyasət nəticəsində, Rusiyanın erməninin çağırışına laqeyd qadığı bir məqamda bu məsələlər həll olunur. Geriyə yol yoxdur, ancaq irəli...

***- Bölgədə vəziyyət dəyişib, Azərbaycan zəfər çalan bir dövlətdir. Türkiyə regionda güclənib, ümumi üstünlüklərimiz var. Zəngəzurda bir yol açılır. Qarabağda rus sülhməramlıları da var. Maraqlıdır, bu fonda Ermənistan Zəngəzur dəhlizinin açılmasına maneə törədə bilərmi?***

- Ermənistanın bu prosesdən geriyə çəkilmək, nəyisə özünün xeyrinə həll etmək imkanı yoxdur. Bunu birmənalı şəkildə demək olar. Bir il əvvəl məndən soruşanda, həmişə deyirdim ki, torpaqlar heç vaxt işğal altında qalmayacaq. Onda mənim bu barədə çox əsaslarım yox idi. Yəni hansı yolla azad olacaq, necə işğaldan azad edəcəklər, erməniər hansı günə düşəcək, bizim vəziyyətimiz necə olacaq... Tarixdə belə hadisələr çox olub. Diplomatiya tarixinə baxsaq bunu görərik. Elə məqamlar olur ki, dövlətin də, xalqın da taleyində mühüm rol oynayır. Bu, dövlət başçılarından və yaranan məqamdan asılıdır. Birincisi, indiki müzəffər Azərbaycan Prezidenti, müzəffər Azərbaycan Ordusu, xalq birliyi işğaldan azad olunmuş torpaqları və Zəngəzur yolunun açılmasına gedən istiqamətdə əsas rol oynayan məqamlardır. İkincisi, Rusiyanın artıq Ermənistanın tərəfini saxlamaq həvəsindən çəkilməsidir. Azərbaycan düz yolda, erməni isə səhv yoldadır. Gec-tez, 30 ildə keçsə, bu düz o əyrini kəsdi. Üçüncüsü, bu, Türkiyənin özünün qüdrətləndiyi, gücləndiyi bir zamanda baş verdi. Türkiyə ilə Azərbaycan yan-yana dayandığı bir məqamda Rusiya Zəngəzur yoluna razı olsa da, olmasa da çəkiləcək. Ermənilərdən bunu heç soruşmaq da lazım deyil. Ermənilər indi özəri buna maraq göstərirlər.

Ermənistanın bu prosesdən geriyə çəkilmək, nəyisə özünün xeyrinə həll etmək imkanı yoxdur




Zəngəzur yolunun açılması Rusiyanın özünə də xeyirdir. Rusiya vaxtilə “isti dəniz”lərə çıxmaq üçün nə qədər qanlar töküb, müharibələr aparıb. İndi rahat şəkildə bütün dünyaya çıxır...

***- Məhz bu ərəfələrdə sərhədlərimizin delimitasiya və demarkasiyası olunacaq. Sərhədlərin müəyyən edilməsi hansı tarixdən götürülməlidir?***

- Son dövrlərdə belə bir məsələ ortaya atmışdılar ki, 1920-ci ildə qəbul olunmuş xəritələr əsas götürülsün. Yəni Azərbaycan Xalq Cümhuriyyəti yaranandan bir az sonra ərazimiz 116 min kvadrat-kilometr idi. SSRİ yarananda Azərbaycan ərazisi SSRİ-nin tərkibinə 96,4 min kilometr ərazisi olaraq daxil edilmişdi. Ən azı, 1920-ci ildə sovet hökumətinin tərkibində olan dövrdən götürülməlidir. Azərbaycan dövlətinə yenə də bu sərf edir. Reallıqdan çıxış etmək lazımdır. Biz bu gün hansı ərazilərin dərdini çəkirik? Hətta sovet hökuməti dövründə də Ermənistan qeyri-rəsmi olaraq Azərbaycan torpaqlarında azərbaycanlıları sıxışdırdılar. Biz bunu əyani olaraq Qazax bölgəsində, Laçının Qaragöl sahilləri, bu tərəfdən də Gorus ərazisində müşahidə etdik. Hətta oraları heç bir rəsmiyyət olmadan qeyri-qanuni ermənilər yavaş-yavaş ələ keçirdi. Bu yaxınlarda Ermənistanda rəsmi dairələr belə məsələ ortaya atıblar ki, biz sərhədlərin müəyyən olunmasını 1926-cı ilin xəritəsi ilə götürək. Onu da araşdıranda görüblər ki, 1926-cı ildə çəkilmiş heç bir xəritə yoxdur.

✍ *Tahirə Qafarlı*

# Qarabağda erməni silahlıları tam məhv olacaqdı...



**Oleq Kuznetsov,**
hərbi ekspert, siyasi icmalçı

**Noyabrın 8-də Şuşa azad edilən gün Ermənistanın Qarabağdakı işğalçı ordusu tamamilə darmadığın edilmək ərəfəsində idi. Hafta.az xəbər verir ki, bu fikirləri rusiyalı hərbi ekspert, siyasi icmalçı Oleq Kuznetsov söyləyib. Onun sözlərinə görə, həmin gün erməni silahlı birləşmələrinin ağır vəziyyətə düşməsi üçün ilk gün sayılmamalıdır:**

«Lakin İrəvan cəbhədəki vəziyyətə dair adekvat informamisyaya malik deyildi, y a da ona qulaq asmırdı. Məlumdur ki, baş nazir Nikol Paşinyan Ermənistan parlamentində noyabrbəyanatının imzalanmasının səbəblərindən danışarkən bildirmişdi ki, bütün Qarabağda ermənilərin ehtiyatda cəmi iki 122 millimetrlik silahlarla silahlanmış batareyası qalmışdı. Hansı ki, onlar Azərbaycan ordusunun irəliləyişini dayandıra bilməzdi». Ekspertin sözlərinə görə, 8 noyabra kimi sayları 12-16 min olan erməni



hərbi birləşmələri Ağdamda tamamilə mühasirəyə düşmüşdü. Laçın və Qırmızı Bazar istiqamətindəki hərbi birləşmələr isə yarımmühasirə vəziyyətində idilər. Ümumilikdə 20 min erməni əsgər və zabit fiziki cəhətdən məhv edilmək təhlükəsi ilə üz-üzə qalmışdı:

«Ordusunun balansında olan silah-sursatla Azərbaycana cəmi 2-3 gün bəs idi ki, İrəvanın hazırda etiraf etdiyi 4 min nəfərlik itkilərinin sayını 20 minə qaldırsın. Bu Ermənistan üçün tək hərbi-siyasi, hərbi-texniki məğlubiyyət yox, həm də ümummilli faciə olacaqdı».

Kuznetsovun sözlərinə görə, vəziyyət elə bir hal almışdı ki, noyabrın 13-ə qədər artıq Qarabağ ərazisindəki erməni silahlı birləşmələrindən prinsipcə əsər-əlamət qalmayacaqdı. Bu səbəbdən noyabrın 9-da üçtərəfli bəyanat imzalandı. Ekspert bildirib ki, Ermənistan Azərbaycanın hərbi gücünü qiymətləndirməməklə böyük səhvə yol verdi.

✍ ***Azad***



**■ “Bizim büdcə gəlirlərimiz nəzərdə tutulandan daha artıqdır. 1,5 milyard manat məbləğində artıq daxilolmalar gözlənilir”. Bunu maliyyə naziri Samir Şərifov deyib.**

Nazir bildirib ki, bura 1,2 milyard manat İqtisadiyyat Nasirliyi yanında Vergi Xidmətindən, 200 milyon manat Dövlət Gömrük Komitəsi, 100 milyon manat isə digər qurumlardan daxilolmalar daxildir: “Neft qiymətlərinin artımı prosesi də göz qabağındadır. Dünyada bununla bağlı müxtəlif ssenarilər söylənilir. Bu ssenarilər ötən ilin payızında mövcud deyildi. Ssenarilərin əsası ondan ibarətdir ki, dünya peyvəndlərin ərsəyə gəlməsi ilə bağlı tənəzzüldən tədricən çıxacaq və bərpa prosesinə qədəm qoyacaq. Lakin bu bərpa prosesinin hansı şərtlərlə, problemlərlə üzləşəcəyi ssenarilərdə yox idi.



**■ “Bir sıra məsələlərdə vətəndaşın vəziyyəti nəzərə alınaraq, addımlar atılmalıdır”. Bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında “Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında” qanun layihəsinin müzakirəsi zamanı deputat, Böyük Quruluş partiyasının başqanı Fazil Mustafa deyib.**

O bildirib ki, rüsumlar və cərimələrin miqdarı kəskin formada artmaqdadır: “Artıq bütün vətəndaşların cəriməsi var. Bakı Nəqliyyat Agentliyinin cərimələrinin həddi-hesabı yoxdur. Bu, yol infrastrukturunun düzgün qurulmasının problemidir, cəriməsini isə vətəndaş ödəyir”. F. Mustafa deyib ki binaların istiliklə təchizatı da bərbad vəziyyətdədir:



**■ “Rayonlarda kəndlərin çoxunda xarici dil müəllimi yoxdur”. Bunu deputat, VHP sədri Sabir Rüstəmxanlı deyib. Onun sözlərinə görə, bütün idarə və qurumlarda tələb edirlər ki, ingilis və rus dilini bilməyən işçi işə götürülməsin: “O kənddə, rayonda yaşayan bu dili necə öyrənsin?”.**

Deputat Azərbaycan rayonlarının 95%-də kitab mağazasının olmadığını da diqqətə çatdırıb. S. Rüstəmxanlı qeyd edib ki, işsizliyin aradan qaldırılmasının da yolları tapılmalıdır: “Yeni müəssisələr yaradılmalıdır. Bakıda neçə zavod bağlandı, onların metallarını belə satıblar. İşsizliyim ləğvi üçün yeni müəssisələrin qurulması vacibdir”. VHP sədri Bakıda uşaq bağçalarının çatışmamasına da toxunub:




**■ Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinin yaradıcı şəhərlər şəbəkəsinə daxil edilməsi ilə bağlı Mədəniyyət Nazirliyi tərəfindən iş aparılır. Bu barədə hafta.az-a Nazirlikdən məlumat verilib.**

Qeyd edək ki, 49 şəhər UNESCO-nun Baş Direktoru Audrey Azulenin qərarı ilə Yaradıcı Şəhərlər Şəbəkəsinə (UCCN) qoşulub. Hazırda şəbəkə 90 ölkədən 295 şəhəri əhatə edir. Bu şəbəkə inkişafını yaradıcılıq - musiqi, sənət və sənətkarlıq, dizayn, kino, ədəbiyyat, rəqəmsal incəsənət və qastronomiya üzərində quran şəhərləri bir araya gətirir. Şəbəkə innovasiya və yaradıcılığı yeni şəhər strategiyasının davamlı və daha inklüziv inkişafının əsas faktoru hesab edir.



**■ “İcmal büdcənin tərkib hissəsi kimi Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən Sığorta Fondunun büdcələri Milli Məclisə təqdim olunub”.**

Hafta.az-ın məlumatına görə, bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında “Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında” qanun layihəsinin müzakirəsi zamanı əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev deyib. Sədr bildirib ki, məcburi dövlət sosial sığorta haqları üzrə növbəti ildə çox böyük artım gözlənilir: “Bunun həcmi 18 % qədərdir. Bundan irəli gələrək dövlət öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsait azaldılır. DSMF-nin büdcəsinin 80-%-i sosial sığorta haqlarının yığımı hesabına formalaşacaq.



**■ “İqtisadiyyat Nazirliyinin qiymətləndirilmələrinə görə, cari ildə iqtisadi artımın 5%-dən çox olması gözlənilir”. Bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov deyib.**

Nazir bildirib ki, qeyri-neft sektorunda iqtisadi artımın sürətlənməsinə təkan verən amillər mövcuddur: “Cari ilin 9 ayında qeyri-neft sektorunda əlavə dəyər artıb. Son illər hökumət tərəfindən sənaye zonalarının inkişafı üçün siyasət həyata keçirilib. Tikinti sektorundan əlavə, dəyərin artımı hələ ki, mənfi zonadadır. Son illər sənaye zonalarına əhəmiyyətli investisiya yatırımları olub. Bu günədək ölkədə 510-dan çox investisiya təşviqi sənədi verilib. Dövlət investisiyalarına gəldikdə, 2022-ci ilin ilkin büdcə layihəsində bu istiqamətə əsaslı vəsait qoyulub.

# Büdcə vəsaiti, yoxsa özəl sərmayə?

## Qayıdış

***"2022-ci il və sonrakı 3 il üçün proqnozlaşdırılan büdcə layihələri iqtisadi artımı, şəhid ailələrinin, müharibə qəhrəmanlarının sosial müdafiəsini dəstəkləyəcək". Bu sözləri Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi ilə bağlı Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında maliyyə naziri Samir Şərifov deyib. Onun sözlərinə görə, 2022-ci ildə işğaldan azad olunmuş ərazilərin bərpası əsas prioritet olaraq qalmaqdadır: "Bu gün Azərbaycan xalqı Vətən müharibəsində qazanılan Zəfəri qeyd edir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə Azərbaycan Ordusunun bizə bəxş etdiyi bu Zəfərdən sonra işğaldan azad olunmuş ərazilərdə sürətli inkişaf və bərpa dövrü başlanıb". Nazir qeyd edib ki, işğaldan azad olunmuş ərazilərin tarixi simalarının qaytarılması, mədəni tarixi abidələrin bərpası, elektrik, su və yol xətlərinin çəkilməsi ilə bağlı başlanılan işlər böyük sürətlə davam edir. Prezident İlham Əliyevin tapşırığından irəli gələn bu ümdə vəzifələrin növbəti ildə də davam etdirilməsi üçün 2,2 milyard manat vəsait ayrılması nəzərdə tutulub .***



Azad olunmuş ərazilərin bərpası

"

*Prezident İlham Əliyevin tapşırığından irəli gələn bu ümdə vəzifələrin növbəti ildə də davam etdirilməsi üçün 2,2 milyard manat vəsait ayrılması nəzərdə tutulub...*

*İşin əsas hissəsini həmin ərazilərin mnalardan təmizlənməsi təşkil edir. Buna görə də əsas yükün dövlətin, dövlət büdcəsinin üzərinə düşməsi qaçılmazdır...*

*Nursultan şəhərinin qurulmasına 60 milyard dollar xərclənib. Həmin vəsaitin təxminən 25 milyard dolları Qazaxıstan dövlət büdcəsi, qalan 35 milyard özəl sektorun payına düşüb. Biz də bu yanaşmadan istifadə etməliyik...*

Bəs görəsən, hökümət işğaldan azad olunmuş ərazilərin bərpasına il ərzində maksimum nə qədər vəsait yönəldə bilər? Büdcədə əlavə yükün yaranmaması üçün həmin vəsaitin neçə faizi dövlət, neçə faizi kənar maliyyə vəsaitləri hesabına formaslaşmalıdır? Bu məsələdə balans necə qorunmalıdır?

■ **Mövzunu hafta.az-a şərh edən iqtisadçı-ekspert Azər Mehtiyev bildirib ki, bu istiqamətdə konkret rəqəmlər açıqlamaq hazırda qeyri-mümkündür:** "Bununla bağlı hesablamalar aparılmalıdır, mövcud vəziyyət hərtərəfli təhlil olunmalıdır. Məlumdur ki, indi həmin ərazilərdə mii-nalardan təmizlənmə prosesi gedir. Bunun özünün nə qədər vəsait tələb etməsi, prosesin nə vaxt yekunlaşacağı bəlli deyil. Burada yalnız maliyyə deyil, həm də insan resursları qiymətləndirilməlidir. Digər bir tərəfdən, hazırda həmin ərazilərdə hələ ki, infrastrukturun qurulması istiqamətində işlər gedir. İnfrastrukturun qurulması əsasən hökümətin üzərində olur və bərpa prosesinə bu il də, gələn ildə dövlət büdcəsindən 2,2 milyard manat vəsait nəzərdə tutulur. O ki qaldı bu ərazilərin iqtisadi canlandırmasına, bu işi daha çox investorlar vasitəsilə həyata keçirmək lazımdır. Həmin ərazilərdə müxtəlif investisiya layihələri qiymətləndirilməlidir. Yəni, bu istiqamətdə dövlət büdcəsinin xərclərinin azaldılması yolu ilk növbədə iqtisadi layihələrə daha çox investorların cəlb olunmasından keçir. Burada söhbət yalnız xarici sərmayədarların dövlət büdcəsi hesabına həyata keçirdiyi layihələrdən deyil, daha çox kommersiya layihələrindən gedir. Və burada işə yerli və xarici investorların nə qədər cəlb olunmasından asılı olaraq proses təbii olaraq sürətlənə bilər. Ancaq bütün hallarda işin əsas hissəsini həmin ərazilərin mnalardan təmizlənməsi təşkil edir. Buna görə də əsas yükün dövlətin, dövlət büdcəsinin üzərinə düşməsi qaçılmazdır".



**Samir Şərifov,**
maliyyə naziri

■ **Məsələ ilə bağlı iqtisadçı-ekspert Akif Nəsirli isə hafta.az-a açıqlamasında bildirib ki, əgər Azərbaycan işğaldan azad olunmuş əraziləri dövlət büdcəsi hesabına bərpa etməyi hədəfləyərsə, bu prosesi 50 ilə belə başa çatdırmaq mümkün olmayacaq:** "Hesab edirəm ki, hazırda əhalinin həmin bölgəyə köçürülməsi üçün doğru bir yol seçilib. Ərazidə kommunikasiya xətlərinin yaradılması, yol tikintisi, işıq, su, qaz, internet şəbəkələrinin formalaşdırılması ilkin mərhələdə doğru addımdır. Bu məsələlərdə investisiya mənbəyi isə hələ ki yalnız dövlət büdcəsidir. Əraziyə bizim qoyduğumuz investisiyadan əlavə şirkətlərin özlərinin də investisiya qoymasını təmin etməliyik. Azərbaycan hökumətinin bu istiqamətdə də fəaliyyəti olmalıdır. Biz şərait yaratmalıyıq ki, kimsə gəlib orada istehsal müəssisəsi yaratsın, zavod, fabrik tiksin, turizm mərkəzi açsın, investisiya qoysun, bundan həm özü, həm də bölgə bəhrələnsin. Bu, dünya praktikasında çox olub. Məsələn, şəhərlər var ki, qurularkən investisiyanın yarıya qədərini dövlət qoyur, yarıdan çoxu isə kənardan cəlb edilir. Nursultan şəhərinin qurulma praktikası belə olub. Şəhərin ərsəyə gəlməsinə 60 milyard dollar vəsait xərclənib. Həmin vəsaitin təxminən 25 milyard dolları Qazaxıstan dövlət büdcəsi hesabına formalaşıb, qalan 35 milyard özəl sektorun payına düşür, onun da əksəriyyəti xarici şirkətlərdir. Biz də bu yanaşmadan istifadə etməliyik, məsələn, biz nəzərdə tuturuq ki, Qarabağın bərpası üçün 30 milyard xərcləyək, amma həm də çalışmalıyıq ki, oraya 40-50 milyard yerli və ya xarici özəl investisiya cəlb edək".



**Azər Mehtiyev,**
iqtisadçı-ekspert

İqtisadçı hesab edir ki, bunun üçün ölkə iqtisadiyyatındakı ənənəvi problemlər aradan qaldırılmalıdır: "Həmin problemlər həll olunsa, biz o hədəfi seçmək imkanına malik ola bilərik. Cəlbedici mühit yaratsaq, Qarabağın qurulmasına o qədər də ciddi vəsait ayırmağımıza ehtiyac yoxdur. Kənd təsərrüfatı sahəsində də cəlbediciliyi artırmaq üçün elə sadaladığımız problemlər ardan götürülməlidir. Həmçinin bizim hesabatlılığımız da olmadığı üçün kənd təsərrüfatına nə qədər pul ayırsaq da, inkişaf eləmir. Təxminən 30 il ərzində 40 milyard vəsait ayırmışıq, ancaq bu gün kənd təsərrüfatının inkişaf göstəriciləri üç-beş faizdir, halbuki 50-60 faiz olmalıydı. Çünki o vəsait səmərəli xərclənməyib. Bu gün deyirik ki, üç milyon ton taxın istehsal eləmişik, amma həm də xaricdən taxıl idxal edirik. Deməli, deyilən rəqəmlər şübhəlidir. Azərbaycan əhalisinin təminatı üçün 1,8 milyon ton ərzaq buğdası lazımdır. Bu üç milyon tonun içərisində 1,8 milyon ton ərzaq buğdası niyə ortaya çıxmır ki, biz 1,2 milyon ton civarında xaricdən ərzaq buğdası idxal edirik? Bu isə tələbatımızın 60-70 faizidir. Demək istədiyim odur ki, hesabatlılıq yaradılmalıdır. Ondan sonra hansı layihəni istəsək, həyata keçirə bilərik. Heç dəvətə də ehtiyac yoxdur, transmilli şirkətlər bu işdə maraqlı olacaqlar və özləri həmin ərazilərdə iş qurmaq üçün Azərbaycan hökümətinə müraciət edəcəklər".



**Akif Nəsirli,**
iqtisadçı-ekspert



✍ *Sevinc*

## Problem

***Azərbaycanda ərzaq məhsullarının qiyməti sürətlə bahalaşır. Hətta bu gün vəziyyət o həddədir ki, market çalışanları da məhsulların qiymətini göstərən etiketləri vitrinlərdə yeniləməkdən yorulduqlarını bildirirlər. Demək olar ki, ərzaq məhsulları gündəlik olaraq 10-15, bəzi məhsullar isə 20-25 qəpik bahalaşır. Bahalaşan məhsullar əsasən, ət, kərə yağı, şəkət tozu,qənd, çay, süd və süd məhsulları, bitki yağları, yuyucu tozlar, təmizlik vasitələri, un və un məmulatlarıdır.***



Hər gün bahalaşan qiymətlər hansı riskləri yaradır?

# Ərzaq böhranı "fırtınası"

Qeyd edək ki, rəsmi rəqəmlər də ölkədə ərzaq məhsullarının bahalaşdığını təsdiqləyir. Dövlət Statistika Komitəsinin açıqladığı rəqəmlərə görə, bu ilin yanvar-sentyabr aylarında istehlak qiymətləri indeksi ötən ilin müvafiq dövrünə nisbətən 105,2 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 106 faiz, qeyri-ərzaq məhsulları üzrə 104,4 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 104,6 faiz təşkil edib. Cari ilin sentyabr ayında istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 101,8 faiz, əvvəlki ilin sentyabr ayına nisbətən 108,5 faiz təşkil edib. Bu ilin sentyabr ayında ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 102,6 faiz, əvvəlki ilin sentyabr ayına nisbətən 110,4 faiz təşkil edib.

Cari ilin sentyabr ayında əvvəlki aya nisbətən ayrı-ayrı ərzaq məhsullarından daha çox bahalaşma çörəyin, makaron məmulatlarının, qarabaşaq yarmasının, unun, düyünün, kolbasa məmulatlarının, toyuq, qoyun və mal ətinin, təzə və dondurulmuş balığın, südün, kəsmiyin, pendirin, yumurtanın, günəbaxan yağının, yemişin, qarpızın, gavalının, bananın, pomidorun, göy lobyanın, badımcanın, bibərin, kələmin, xiyarın, kartofun, soğanın, sarımsağın, mərcinin, şəkər və şəkər tozunun, konfetlərin, çay, qəhvə və kakao tozunun, kola içkisinin, meyvə şirəsinin, arağın, ucuzlaşma isə əsasən kivinin, üzümün, almanın, armudun, naringinin, balqabağın, çuğundurun və yerkökünün qiymətlərində müşahidə olunub. Digər ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib. 2021-ci ilin sentyabr ayında qeyri-ərzaq məhsulları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,8 faiz, əvvəlki ilin sentyabr ayına nisbətən 105,9 faiz təşkil edib. Cari ilin sentyabr ayında əvvəlki ayla müqayisədə qeyri-ərzaq məhsullarından daha çox bahalaşma parçaların, geyim və ayaqqabıların, inşaat materiallarının, mebellərin, minik avtomobilləri üçün ehtiyat hissələrinin, dəftərxana ləvazimatlarının, zərgərlik məmulatlarının, ucuzlaşma isə mobil telefon və ventilyatorların qiymətlərində müşahidə olunub. Digər qeyri-ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib. 2021-ci ilin sentyabr ayında əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 101,5 faiz, əvvəlki ilin sentyabr ayına nisbətən 107,9 faiz təşkil edib. Cari ilin sentyabr ayında əvvəlki ayla müqayisədə əhaliyə göstərilmiş ödənişli xidmətlərdən daha çox bahalaşma paltarların təmiri, kimyəvi təmizlənməsi və kirayəsi, ayaqqabı, mebel, məişət cihazları, minik avtomobilləri və mənzillərin təmiri, tibbi, stomatoloji, ictimai iaşə, bərbərxana və kosmetoloji xidmətlərin qiymətlərində, mənzillərin icarə haqlarında, ödənişli ali təhsil haqlarında, ucuzlaşma isə hava nəqliyyatı ilə beynəlxalq sərnişindaşıma xidmətlərinin və respublikadan kənara istirahət turlarının qiymətlərində müşahidə olunmuşdur. Digər ödənişli xidmətlərin qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

### FAO həyəcan təbili çalır

■ **Bu gün ərzaq məhsullarında qiymət artımı bütün ölkələrdə müşahidə edilir. Birləşmiş Millətlər Təşkilatının (BMT) Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) qlobal ərzaq qiymətlərinin son 10 ildən çoxdur ki, görünməmiş səviyyədə artdığını açıqlayıb.** FAO-nun məlumatına görə, qlobal ərzaq qiymətləri indeksi 2021-ci ilin 11 ayı ərzində 36 faiz, oktyabr ayında isə 3 faiz artaraq 133,2 bala yüksəlib. Bu yeni rekorddur. Əvvəlki rekord 131,9 bənd ilə 2011-ci ildə qeydə alınmışdı. Bitki yağının qiymətləri oktyabr ayında təxminən 10 faiz artımla rekord səviyyəyə çatıb, taxılın qiyməti isə əvvəlki ilə nisbətən 22faizdən çox artım nümayiş etdirib. 2021-ci ilin 10 ayı ərzində bitki yağlarının qiymət indeksi 86faiz artaraq 184,8 bəndə çatıb.

İşçi qüvvəsinin çatışmazlığı da bütün dünyada ərzaq istehsalı və daşınması xərclərinin artmasına səbəb olub. Buğdanın qiyməti Kanada, Rusiya və ABŞ kimi əsas ixracatçıların zəif məhsuldarlıq dövrü keçirməsi ilə əlaqədar olaraq son 12 ayda demək olar ki, 40 faiz artıb. Süd məhsullarının maya dəyəri də ötən il daşınmada yaranan problemlər səbəbindən təxminən 16 faiz bahalaşıb.

"Taxıllara gəldikdə, deyə bilərik ki, iqlim dəyişikliyi istehsalın azalmasına səbəb olur. Biz bir çox yerlərdə məhsuldarlığın çox pis olduğu dövrlər də keçirmişik", deyən Curtin Universitetinin Biznes Məktəbinin biznes analitiki Peter Batt BBC-yə açıqlamasında həmçinin, "Digər problem məhsulun ölkədən çıxarılmasıdadır. Məsələn, buraya Avstraliyaya qida daşımaq üçün çoxlu gəmilər gəlir, lakin Covid-19 səbəbilə biz ekipajı qəbul edə bilmirik", - əlavə edib.

Macquarie Universitetindən Brigit Busicchia bildirib ki, qlobal bazarlardakı spekulyasiyalar da qiymət dalğalanmasına səbəb olub: "1990-cı illərdən əmtəə fyuçerslərinin tənzimlənməsinin azaldılması və ya ləğv edilməsi institusional investorların bu bazara geniş miqyasda daxil olmasına imkan verdi. Bu, xüsusilə ərzaq idxalından asılı olan ölkələrə təsir edir. Misir və ya digər Yaxın Şərq ölkələri kimi ölkələrin taxıl tədarükündə problem yaşaması gözlənilir".

Busicchia həmçinin vurğulayıb ki, ərzaq qiymətlərinin yüksəlməsi ən çox aşağı gəlirli təbəqələrdə hiss olunur və bununla onlar yoxsulluğa daha da sürüklənirlər ki, bu da sosial və siyasi gərginliyin artmasına təsir göstərə bilər. Ekspertlər qlobal ərzaq qiymətlərində olan artımın səbəblərini müxtəlif məsələlərlə əlaqələndirirlər. Bunlar əsasən yanacaq qiymətlərinin yüksəlməsi, pis ekoloji şərait və COVID-19 pandemiyasıdır. Qlobal təsirlərlə yanaşı hər bir qida məhsuluna regiona uyğun da təsirlərin də olması qaçılmazdır. 2020-ci ilin aprelindən etibarən neft qiymətlərinin artması ilə qida məhsullarının daşınma xərcləri artıb və bu da FAO-nun ideksi üzrə qida qiymətlərinin artmasına səbəb olub. Həmçinin COVID-19 pandemiyası səbəbindən işsizliyin artması da qiymət artımına təsir edən amillərdəndir.

### Qiymətlərdə 20-30 faiz artım var

■ **Mövzunu hafta.az-a şərh edən iqtisadçı-ekspert Rəşad Həsənov deyib ki, Azərbaycanda ərzaq məhsullarının qiyməti infilyasiya səviyyəsinə görə ilk sırada dəyanır:**

"Bu istiqamətdə artım təxminən 5.6 faizdir. Mən düşünürəm ki, reallıqda bu göstəricilər daha böyükdür. Əvvəllər 45 qəpiyə satılan çörəyi indi 50, bəzən 60 qəpiyə almaq olur. Çörəkdən başqa, un məmulatlarının, o cümlədən makaronun-vermişelin, eləcə də şəkər tozunun, ağartı məhsullarının qiymətində artım görünür. Yəni, 2020-ci ildən bəri ərzaq məhsullarının qiymətində təxminən 20-30 faiz arasında artım baş verib. İlin əvvəlində hökumət bir sıra təbii inhisarçının olduğu sahələrdə təklif etdiyi mal və xidmətlərin qiymətini artırdı. Xüsusilə yanacağın qiymətinin artması dəyər zəncirinin müxtəlif halqalarında istehsal prosesində maya dəyərinin artmasına gətirib çıxarır. Bu da bazarda məhsulun son istehlak qiymətlərinin artmasına səbəb olur. Təbi ki, mövcud qiymət artımına Azərbaycan bazarının xüsusiyyətləri də təsirsiz ötüşmür. Azərbaycan bazarında liberal mühitin olmaması, rəqabətin zəif olması iri oyunçulara qiyməti bəzən diktə etməyə əlverişli şərait yaradır. Belə olduğu halda hökumət daha aktiv siyasət aparmalıdır. Gömrük rüsumlarından, vergilərdən, yeni təşviq mexanizmlərindən istifadə etməlidir. Eyni zamanda daxili istehsalın özünün həcmini dəstəkləyən əlverişli mühit formalaşdırmalıdır. Nəticə bazar oyunçularının sayı arta və qiymətlərin optimal səviyyəyə qədər düşməsi təmin edilə bilər".

Ekspertin fikrincə, ərzaq təminatı ilə bağlı müəyyən qədər problemləri həll etsək də, 2008-2015 -ci il ərzaq təhlükəsizliyi proqramı çərçivəsində ciddi asılılığı aradan qaldıra bilməmişik: "Bu proqram çərçivəsində bir sıra məhsullar üzrə 100 faiz daxili istehsal hesabına təminatın formalaşdırılması nəzərdə tutulsa da, proqrama daxil olan məhsulların bir çoxu üzrə əksinə, məsələn, kartof da bura daxil olmaqla istehsalın azalması müşahidə olundu. Bu isə proqramın tam da uyğun olmadığını deməyə əsas verir və hazırda asılılıq davam edir. Asılılıq olduğu təqdirdə də biz ərzaq məhsulları təminatı baxımından xarici şoklara açıq ölkələrdən biri olaraq qalacağıq".

### Azərbaycan heç bir məhsulla özünü tam təmin edə bilmir

■ **Məsələ ilə bağlı hafta.az-a danışan kənd təsərrüfatı məsələləri üzrə ekspert Vahid Məhərrəmov isə hesab edir ki, Azərbaycanda qiymət artımını şərtləndirən əsas amil idxaldan asılılığın yüksək olmasıdır:**

"Bu ölkəmizdə kifayət qədər imkan var ki, biz daxili tələbatı ödəyəcək qədər ərzaq buğdası, süd məhsulları, ət və ət məhsulları, bitki yağları, hətta şəkər tozu istehsal edək. Bununla bağlı heç bir problem yoxdur. Məsələn, bizə daxili tələbatı ödəmək üçün təxminən 3 milyon ton şəkər çuğunduru lazımdır və onu da istehsal etmək mümkündür. Ümumiyyətlə, Azərbaycanın torpaq-iqlim şəraiti İtaliya, İspaniya və Türkiyə ilə müqayisə olunur. Bu gün dünyada ən çox kənd təsərrüfatı məhsulu istehsal edən ölkələrdən biri İspaniya, İtaliya və Türkiyədır. Belə bir ölkələrlə müqayisə olunan Azərbaycan niyə dünya bazarından asılı vəziyyətə düşsün ki? Məsələn, Ermənistan dünya bazarlarından asılı qala bilər. Çünki Ermənistan ərazisi daha çox dağlıq rayonlarından ibarətdir, məhsuldarlığı artırmaq üçün şərait yoxdur. Ərəb ölkələrini götürək. Onlarda da belə bir şərait yoxdur. Belə ölkələrin sayı çoxdur. Amma Azərbaycanın kifayət qədər imkanlarının olmasına baxmayaraq yerli istehsal demək olar ki, yox dərəcəsindədir. Məsələn, Azərbaycan adambaşına kartof, süd, ət,yumurta istehsalında MDB ölkələri arasında geridə qalıb.

Hətta tərəvəz istehsalında da geridədir və 3-cü yerdə dayanır. Yəni, 10 ölkə arasında heç bir məhsulun istehsalında 1-ci yerdə deyil və özünü təmin edə bilmir. Bu o deməkdir ki dünyada müşahidə olunan ərzaq böhranı və bunun nəticəsində yaranan qiymət artımından daha çox təsirlənən ölkələr arasında Azərbaycan da olacaq".

✍ *Sevinc*

Menyu

# Yağ kimi...

***Bildiyiniz kimi, qədim türk mətbəxi bolyağlı və kalorili, ləzzətli yeməkləri ilə məşhurdur. Təbii ki, hazırlanan təamlarda önəmli rola malik olan yağların keyfiyyəti bu məqamda ön plana çıxır. Hazırda daha çox təbii kərə və bitkitərkibli duru yağlarından geniş istifadə olunur. Bir çoxlarının sevdiyi, ancaq yeməkdən çəkindiyi kərə yağını daha sağlam vəziyyətə gətirmək mümkündür. Bu, keçmişdən bildiyimiz, lakin unudulmuş bir üsuldur və Qafqaz, Anadolu, Hindistan, Banqladeş, Pakistan, Osmanlı və fransız mətbəxlərində özünü göstərmişdir. İngilis dilində "Ghee" adlanan kərə yağının faydalısı "sadə yağ"dır.***



"Sadə yağ" - süd və süd məhsullarından alınan, su və yağsız quru maddə elementlərindən təmizlənmiş, tərkibinin 99 faizi süd yağına malik olan məhsul kimi tərif edilir.

Bəs görəsən, yerli bazarlarda təbii kərə yağları ilə bağlı vəziyyət nə yerdədir? Tərkiblərinə əlavə hansı kimyəvi qatqılar vurulur? Yerli "Yağ bazarı"nda vəziyyət necədir?

■ **Məsələ ilə bağlı hafta.az-a danışan Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov söylədi ki, uzun illərdir ölkənin yağ bazarında böyük hərc-mərclik hökm sürür:**

"Demək olar ki, hər gün istehlakçılar bununla bağlı bizə müraciət edirlər. "Kənd yağı" adı ilə regionlardan gələn, ağ, yumurlanmış yağların tərkibi heç də təbii deyil. Əslində, bu yağların kənd ilə əlaqəsi də yoxdur. Hazırda əksəriyyəti "İvanovka" mağazalar şəbəkəsində satılır". Duru yağ məsələsinə gəldikdə isə ekspert hesab edir ki, burada da problemlər heç də az deyil. Xüsusən xarici ölkələrdən - Rusiyadan Azərbaycana gətirilən belə məhsullarda ciddi nöqsanlar var:



**Eyyub Hüseynov,**
Azad İstehlakçılar Birliyinin sədri

> *Rusiyadan idxal olunan qarğıdalı yağları üzərində apardığımız eksperimentlərdən məlum oldu ki, onlar heç qarğıdalı yağı da deyil*

"Bir müddət öncə Rusiyadan idxal olunan qarğıdalı yağları üzərində apardığımız eksperimentlərdən məlum oldu ki, onlar heç qarğıdalı yağı da deyil. Sadəcə, üzərində bu ad yazılıb. Bütün hallarda tövsiyəm budur ki, istehlakçılar yerli məhsullara üstünlük versinlər. Yerli zeytun yağları belə məhsulların içində ən keyfiyyətlisidir. Bundan başqa, kərə yağları ilə bağlı daim ciddi problem yaşanmaqdadır. Müştəri məhsul alan zaman üzərinə böyük hərflərlə yazılmış "təbii yağ" sözünü gördükdə buna istər-istəməz inanır. Kiçik hərflərlə yazılmış "bitki yağları ilə qarışığı var" ifadəsini isə görmürlər. Yaxud da heç belə məlumat istehlakçıya verilmir.

Dörd il öncə Yeni Zellandiyaya konfransa gedən zaman oradan ölkəmizə yağ ixrac edən zavodları gördüm. Səfər zamanı, hətta bizə yağ göndərən zavodun fermer təsərrüfatına da getdim. Məlum oldu ki, onlar normal yağ hazırlayıb markalayırlar. Lakin bu marka adının Gürcüstanda saxtalaşdırılması məsələsi gündəmə gəldi.

Sədr istehlakçılara yağ alan zaman diqqət edilə bir neçə məqam haqqında da məlumat verdi:

"İstehlakçı əgər bükülmüş yağ almaq istəyirsə, tövsiyə edirəm, onu sıxsın. Hansı məhsul daha bərkdirsə deməli, o daha təbiidir. Kərə yağı kəsilən də parçalanıb tökülməlidir. Səlis kəsilirsə onda bu yağın keyfiyyəti sual altındadır. Bitki yağı qarışığı olan yağlar kərə yağı deyil. Qiymət məsələsinə gəldikdə isə, qiymət və keyfiyyət tərs mütənasibdir. Standartlar olmadığı üçün markalanma mövzusu da əsas problemlərdən birinə çevrilib".

Ona görə də, əziz oxucular, gündəlik istifadə etdiyimiz yağ məhsullarına diqqət edək.

✍ **Banu**

## HƏFTƏ REYTİNQ

### Həftənin TƏBRİKİ




Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanı Zəfər Günü münasibətilə təbrik edib. Türkiyə Prezidenti bu barədə öz rəsmi tvitter hesabında paylaşım edib. "Azərbaycanın Zəfər Bayramını, Qarabağ torpaqlarının azadlığa qovuşduğunun müjdəsini verən bu şanlı günü ən səmimi diləklərimlə təbrik edirəm. Vətən üçün gözlərini qırpmadan mübarizə aparan, şəhid olan qəhrəmanlarımıza Allahdan rəhmət diləyir, qazilərimizi minnətdarlıq hissi ilə yad edirik", - deyə paylaşımda qeyd olunub.

### Həftənin PREZİDENTİ



Çili parlamentinin deputatlar palatası ölkə Prezidenti Sebastyan Pinyeranın impiçmentinə səs verib, yekun qərarı Senat verəcək. "Pandoranın dosyesi"ndəki sənədlərə əsasən, korrupsiyada şübhəli bilinən Pinyeranın impiçmentini 78 deputat dəstəkləyib, 67-si buna qarşı çıxıb, 3-ü bitərəf qalıb. Qeyd edək ki, Pinyeranın səlahiyyətlərinin müddəti 2022-ci il martın 11-də bitir. Noyabrın 21-də ölkədə yeni prezident seçkiləri keçiriləcək.

### Həftənin STATİSTİKASI



"Türkiyə PUA-ları Azərbaycan ordusunun 30 ilə yaxın davam edən erməni işğalına son qoymasında açar rolunu oynayıb və döyüş meydanında ən təsirli silahlardan biri olub". Bu barədə "TRT Haber" telekanalının yaydığı reportajda qeyd olunub. "Azərbaycanın Türkiyədən aldığı silahlı pilotsuz uçuş aparatları (SİHA) Qarabağda zəfərin qazanılmasında əhəmiyyətli amillərdən biri olub və dünyanın diqqətini özünə çəkib. SİHA-lar 44 gün davam edən münaqişədə bütün cəbhələrdə istifadə olundu. Türkiyəyə məxsus bu aparatlar ən ağır müharibə şərtlərində 3 min saat fasiləsiz uçuş həyata keçirib və 900-ə yaxın hədəfi nöqtə atışı ilə vurub", - deyə məlumatda qeyd olunub.

### Həftənin AÇIQLAMASI



Qarabağ üzrə üçtərəfli bəyanatın ildönümü münasibətilə Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyan arasında təmas planlaşdırılmayıb. Bunu Rusiya liderinin mətbuat katibi Dmitri Peskov deyib. "O ki qaldı Bakı və İrəvanla ünsiyyətə, o, Moskva tərəfindən müxtəlif səviyyələrdə və yalnız müntəzəm əsasda baş verir. Üçtərəfli ünsiyyətə gəldikdə isə, əgər belə razılıq əldə olunsa, biz sizə məlumat verəcəyik. Hazırda konkret anlaşma yoxdur", - deyə sözçü qeyd edib. Kremlin sözçüsü, həmçinin bəyan edib ki, bir il əvvəl Rusiya, Ermənistan və Azərbaycan liderlərinin Qarabağla bağlı imzaladığı razılaşmalar İrəvan və Bakı üçün son dərəcə əhəmiyyətlidir.

### Həftənin ZİRVƏSİ



Alpinist İsrafil Aşurlu Azərbaycanın Vətən Müharibəsində qələbəsi şərəfinə Rinat Rəhimxanovla birlikdə Ağrıdağ dağına çıxaraq Azərbaycanın və Türkiyənin xüsusi bayraqlarını sancıb. İsrafil açıqlamasında deyib: "Bütün Azərbaycan və azərbaycanlılar üçün yaddaqalan tarixi - Qarabağ müharibəsində parlaq Qələbəmiz olan 8 noyabrı ən yaxşı şəkildə necə qeyd edə biləcəyimi düşünərək bir sıra yüksəlişlər etmək qərarına gəldim. Türkiyənin ən yüksək zirvəsi - Ağrıdağdan başladım. Daha sonra Azərbaycana qayıdıb daha iki yüksəliş edəcəyik".

### Həftənin QALİBİ



Azərbaycan boksçusu Alfonso Dominqes dünya çempionu tituluna yiyələnib. O, bu uğura Serbiyanın paytaxtı Belqradda keçirilən mundialda imza atıb. 86 kq çəki dərəcəsində mübarizə aparan Avropa Oyunlarının qalibi finalda braziliyalı Keno Maçadonu məğlub edib. Rəqibi üzərində 3:2 (28:29, 29:28, 29:28, 30:27, 28:29) hesabı ilə qələbə qazanan Asif Axundov klubunun üzvü fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. O, təşkilatçılar tərəfindən çempion üçün xüsusi kəmərə və 100 min dollar mükafata da sahib olub.

✍ *Azad Əliyev*

## ® "Azercell"dən yeni "010" nömrələri - "Qaliblərin seçimi!"




**İstifadəçilərin uzun müddət səbirsizliklə gözlədiyi yeni "010" prefiksli (şəbəkə kodlu) nömrələr, "Azercell Telekom" tərəfindən Azərbaycanın mobil rabitə bazarına təqdim edilir.**

Şirkətin rəqəmsal siyasətinə uyğun olaraq, onlayn platforma vasitəsilə rahatlıqla nömrə əldə etmək mümkün olacaq. Belə ki, ilk dəfə olaraq bu cür iri miqyasda nömrə sifarişini onlayn rejimdə gerçəkləşdirən www.azercellim.com <http://-www.azercellim.com> saytı vasitəsilə müştəri bəyəndiyi "010" prefiksli nömrəni seçib dərhal rəsmiləşdirə bilər. Həmin sayt üzərindən nömrə üçün onlayn ödəniş tamamlandıqdan sonra abunəçinin qeyd etdiyi əlaqə nömrəsi və ya elektron ünvanına xüsusi sifariş kodu göndərilir. Həmin kodu 7 gün ərzində istənilən Azercell satış məntəqəsinə təqdim etməklə yeni nömrəni əldə etmək mümkündür.

Yeni nömrələrin təqdimatını Azercell şirkətinin prezidenti Zərinə Zeynalova belə şərh etdi: ""Qaliblərin seçimi!" şüarı ilə ifadə olunan "010" seriyalı nömrələrimiz Vətən müharibəsində qalibiyyətimizin ilk ildönümünə ithaf olunur. İlkin onlayn satış kanalının Azərbaycanın mobil rabitə bazarında daha geniş təqdimatı abunəçilərimiz üçün Azercell servislərini daha əlçatan və rahat edir, eyni zamanda bizə müştəri xidmətlərimizin səviyyəsini artırmağa şərait yaradır".

Yeni nömrənin aktivləşdirilmə şərtləri və tariflər haqqında daha ətraflı məlumatı Azercell-in rəsmi veb-səhifəsindən (www.azercell.com <http://www.azercell.com>) əldə etmək olar. Azercell komandası "Qaliblərin seçimi" - "010" nömrələri ilə sizə daim ən sevincli və xoş xəbərlər almağı arzu edir.

Qələbə bayramımız mübarək!

## Əlillik müddəti bitənlər nə etməlidir?

**Vətəndaşların əlillik müddəti bitdiyindən onlar aidiyyatı üzrə müraciət edərək müvafiq yoxlamalardan keçib təkrar əlilliklərinin uzadılmasını təmin edə bilərlər.**



Bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev deyib.

Nazir qeyd edib ki, bu il 193 min insanın 5 illik əlillik müddəti bitir. "Onların heç birinin əlilliyi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən saxlanılmayıb. Bu qanunvericiliklə tənzimlənən məsələdir" - deyə nazir bildirib.

## Turizm iqtisadi artımın aparıcı qüvvəsi olacaq

**Turizm sektorunun 2022-ci ildə də iqtisadi artımın aparıcı qüvvəsi olacağı proqnozlaşdırılıb. Bu, Hesablama Palatasının "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi" layihəsinə rəyində əksini tapıb.**

Beləliklə, 2021-ci ildə 23,1% artacağı gözlənilən bu sektorun real artım tempinin növbəti ildə 2 dəfə sürətlənməklə, 48,2%-ə yüksələcəyi nəzərdə tutulub. Sözügedən sahə üzrə 2021-ci ildə gözlənilən yüksək artım tempi 2020-ci ildə bu sahədə 60,0%-ə yaxın əhəmiyyətli azalma (aşağı baza effekti) ilə əlaqəli olsa da, 2022-ci ildə də artım tempinin 2 dəfə sürətlənəcəyi, həmçinin növbəti illər üzrə də yüksək artım templərinin müşahidə ediləcəyi nəzərdə tutulub. Xatırladaq ki, 2009-2019-cu illər ərzində turizm üzrə orta artım tempi 14,0% olub, baxılan müddət ərzində ölkədə müxtəlif miqyasda əhəmiyyətli beynəlxalq tədbirlərin keçirilməsi fonunda ən yüksək real artım tempi kimi 32,0% qeydə alınıb.

## GÜNÜN FOTOSU



**Zəfər Gününə və şəhid həkimlərə həsr olunan ilk tibbi yürüş...**

## Ermənilərə dövlət yaradan Rusiya olub

**Qasım Hacıyev,**
Qafqazşünaslıq İnstitutunun Ermənişünaslıq şöbəsinin müdiri, tarix elmləri doktoru

Heç kəs, heç bir fakt erməniləri Cənubi Qafqazda aborigen xalq kimi tanımır.

▸▸ Səh. 6

## STATİSTİKA



■ Şahmatda ilk gediş üçün 169 518 829 100 544 000 000 000 000 000 variant mövcuddur.

■ İtirilən televizor pultlarının 50 faizi divanın yastıqlarının altında, 4 faizi soyuducuda, 2 faizi isə evdən kənarda tapılır.

■ Saatda 121 kilometr sürətlə qaçmaqla Saturnun bir dairəsini 258 günə tamamlamaq mümkündür.



▸▸ Səh. 7

## Ərzaq böhranı "fırtınası"